

Milli azadlıqdan şirin nemət yoxdur!




# YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.

17 iyul 2026-cı il, cümə
№ 124 (7191)
Qiyməti 60 qəpik


## Donald Tramp Azərbaycan Prezidentinin fikirlərinin yer aldığı məqaləni paylaşıb




ABŞ Prezidenti Donald Tramp Azərbaycan Prezidenti İlham Əliyevin onun haqqında səsləndirdiyi fikirlərinin yer aldığı məqaləni özünün "Truth" sosial şəbəkə hesabında paylaşıb.

Geniş məqalə "Breitbart"da dərc olunub.

"Azərbaycan Prezidenti İlham Əliyev Donald Trampı sülh adamı adlandırdı və Ermənistan-Azərbaycan razılaşmasını onun xidmətləri ilə əlaqələndirdi" başlıqlı məqalədə Prezident İlham Əliyevin IV Şuşa Qlobal Media Forumunda səsləndirdiyi fikirlərə yer verilib. Məqalədə Prezident İlham Əliyevin Prezident Donald Tramp və onun komandasının Azərbaycan ilə Ermənistan arasında sülh prosesinin irəliləməsinə mühüm töhfə verdiyini, Trampı isə sülh insanı kimi xarakterizə etdiyi vurğulanıb.

Qeyd edək ki, Prezident İlham Əliyevin bu açıqlamaları IV Şuşa Qlobal Media Forumunda beynəlxalq media nümayəndələrinin suallarını cavablandırarkən səsləndirilib.

### Prezident İlham Əliyev ABŞ Prezidentinə təşəkkür edib

Prezident İlham Əliyev IV Şuşa Qlobal Media Forumunda səsləndirdiyi fikirləri paylaşdığı üçün ABŞ Prezidenti Donald Trampa təşəkkür edib.

Bu barədə Azərbaycan Prezidentinin sosial media hesablarında paylaşım edilib. Paylaşımda deyilir: "Cənab Prezident,

Şuşa Qlobal Media Forumunda səsləndirdiyim və "Breitbart" nəşrinə istinadən Sizi "Sülh İnsanı" kimi xarakterizə etdiyim fikirlərimi paylaşdığınıza görə Sizə təşəkkür edirəm.

Tarixi Vaşinqton Sammitinin birinci ildönümünə bir aydan az vaxt qaldığı bir dövrdə Azərbaycan ilə Ermənistan arasında davamlı sülhün bərqərar olunması istiqamətində əvəzsiz rolunuza görə Sizə bir daha səmimi minnətdarlığımı ifadə etmək istərdim.

Sizin liderliyiniz regionumuzun sülhə, sabitliyə və rifaha yaxınlaşmasına tarixi töhfə verib.

Siz həqiqətən də Sülh İnsanısınız".

## Azərbaycanın gələcəyə hesablanan qlobal gündəliyi



Bax səh. 3

## Azərbaycanın qətiyyətli mövqeyi: İnsan hüquqları ümumbəşəri məsələdir

Bax səh. 2

## Azad ərazilər "yaşıl enerji" regionuna çevrilir

Məlum olduğu kimi Prezident İlham Əliyev Laçın rayonuna səfər çərçivəsində, Hoçaz çayının üzərində yerləşən 14,7 meqavatlıq "Ağbulaq-1", 14,25 meqavatlıq "Ağbulaq-2" və 4 meqavatlıq "Şeylanlı" su elektrik stansiyalarının onlayn formatda açılışını edib. Laçın rayonunun mürəkkəb dağlıq relyefində, dəniz səviyyəsindən 2150 metr yüksəklikdə yerləşən 14,7 MVt-lıq "Ağbulaq-1" Su Elektrik Stansiyası ölkə energetiklərinin icra etdiyi ən çətin mühəndislik layihələrindən biridir. "Ağbulaq-1"stansiyasında ildə 93,2 milyon kVt-saat ekoloji təmiz elektrik enerjisi istehsal olunacaq. Bu, hər il 21 milyon kubmetr təbii qaza qənaət edilməsinə, 37 min ton karbon emissiyasının qarşısının alınmasına və təxminən 37 min nəfərin elektrik enerjisinə olan tələbatının "yaşıl enerji" hesabına ödənilməsinə imkan verəcək.

Hoçaz çayı üzərində inşa edilən 14,25 MVt-lıq "Ağbulaq-2" Su Elektrik Stansiyası isə ildə 87,3 milyon kVt-saat elektrik enerjisi istehsal edəcək. Bunun nəticəsində hər il 19,6 milyon kubmetr təbii qaza qənaət olunacaq, atmosferə 35 min ton karbon emissiyasının atılmasının qarşısı alınacaq və təxminən 35 min nəfərin elektrik enerjisinə olan tələbatı "yaşıl enerji" hesabına təmin ediləcək. Digər stansiya - 4 MVt gücündə olan "Şeylanlı" SES-də ildə 19,4 milyon kVt-saat elektrik enerjisi istehsal ediləcək. Bu, hər il 4,4 milyon kubmetr təbii qaza qənaət edilməsinə, 8 min tondan çox karbon emissiyasının qarşısının alınmasına və təxminən 8 min nəfərin elektrik enerjisinə olan tələbatının yaşıl enerji hesabına təmin edilməsinə imkan verəcək.

Qeyd edək ki, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının...

Bax səh. 4

## Münaqişələrin günahsız qurbanları...



Bax səh. 7

## Gömrük sisteminin Rəqəmsal Logistika Platforması

Bax səh. 5

## "İrəvanda Azərbaycanlı orta məktəbi"

Bax səh. 5

## Aİ Rusiyaya qarşı yeni sanksiyaları müzakirə edir

Bax səh. 7

## Azərbaycan Avropa təsisatları ilə əlaqələri inkişaf etdirməkdə maraqlıdır...

Cənubi Qafqaz geosiyasi məkanında lider dövlət statusunda çıxış edən, qlobal nizamın yeni və ən fəal aktorlarından biri kimi artıq orta güc statusu qazanan Azərbaycan özünün çoxşaxəli xarici siyasət strategiyası ilə seçilir. Bu siyasi kurs həm ikitərəfli münasibətlər kontekstində, həm də çoxşaxəli əlaqələr fonunda yerləşdiyi regionun geosiyasi və geoiqtisadi, bir sözlə, geostrateji təhlükəsizliyinə fundamental töhfələr verir, regional miqyaslı, qlobal xarakterli əməkdaşlıqlar platformasını müəyyənləşdirir. Müstəqil siyasət yürütməsi, sivilizasiyalararası dialoqa mühüm töhfələr verməsi, regional və beynəlxalq təhlükəsizliyin təmin olunmasında strateji tərəfdaş qismində yer alması Azərbaycanın beynəlxalq nüfuzunu artıran əhəmiyyətli faktorlar qismində çıxış edir.

Qeyd edək ki, Azərbaycanın Avropa kontingenti ilə əlaqələri də çoxşaxəli və dinamik əməkdaşlığa əsaslanır. Son illərdə Azərbaycanın siyasi, iqtisadi, enerji, nəqliyyat və humanitar sahələrdə Avropa ilə münasibətləri qarşılıqlı maraqlara əsaslanaraq daha da dərinləşib. Bu münasibətlər bərabərhüquqlu tərəfdaşlıq və qarşılıqlı fayda prinsipləri üzərində formalaşıb. Azərbaycan Avropa üçün strateji əhəmiyyət daşıyan etibarlı tərəfdaşdır - yeni nizama uyğun siyasi dialoqun formalaşması əlaqələri yeni bir məcraya daşıyıb. Bu gün Azərbaycan - Avropa münasibətləri qarşılıqlı maraqların uzlaşdığı, regionda sülh, sabitlik və inkişafın təmininə yönəlmiş strateji tərəfdaşlıq modelinə çevrilib...

Bax səh. 4

## Yeni həmlə...



Bax səh. 6

## Miqrantlara qarşı qaydalar sərtləşdirilir



Bax səh. 6

# Ölkəmiz müstəqil və suveren Fələstin dövlətinin yaradılmasını dəstəkləyir

## Prezident İlham Əliyev bu ölkənin Baş nazirini qəbul edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 16-da Fələstin Dövlətinin Baş naziri Məhəmməd Mustafanı qəbul edib.

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı Baş nazir Məhəmməd Mustafanın ölkəmizə səfərinin Azərbaycanla Fələstin arasında qardaşlıq münasibətlərinin gücləndirilməsinə töhfə verəcəyinə əminliyini bildirdi.

Azərbaycan Prezidenti ölkəmizin paytaxtı Şərqi Qüds olmaqla, müstəqil və suveren Fələstin dövlətinin yaradılmasını dəstəklədiyini vurğuladı.

Dövlətimizin başçısı ilə görüşməkdən şərəf hissi duyduğunu bildirən Məhəmməd Mustafa Fələstin Dövlətinin Prezidenti Mahmud Abbasın salamlarını Prezident İlham Əliyevə çatdırdı.

Dövlətimizin başçısı salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Mahmud Abbasa çatdırmağı xahiş etdi. Prezident İlham Əliyev Mahmud Abbasın ölkəmizə səfərini, həmçinin beynəlxalq tədbirlər çərçivəsində onunla görüşlərini məmnunluqla xatırladı.

Məhəmməd Mustafa Fələstində hazırda çətin vəziyyətin hökm sürdüyünü deyərək, bu durumdan dostların köməyi ilə çıxa biləcəklərinə ümidvarlığını ifadə etdi. Bu xüsusda o, Azərbaycanın Fələstinə göstərdiyi dəstəyə, həmçinin humanitar dəstək kimi Fələstində orta məktəbin tikintisi ilə bağlı niyyətə görə dövlətimizin başçısına minnətdarlığını bildirdi.

Söhbət zamanı Ramallah şəhərində Azərbaycanın Təmsilçilik Ofisinin açılması, Fələstinin ölkəmizdəki səfirliyinin xərclərinin isə Azərbaycan dövləti tərəfindən qarşılanması ikitərəfli əlaqələrimizin yüksək səviyyədə olmasının göstəricisi kimi dəyərləndirildi.

Görüşdə 2013-cü ildə ölkəmizin ev sahibliyi etdiyi "İslam Maliyyə Təhlükəsizliyi Şəbəkəsinin yaradılmasına dair Konfrans"ın və "Qüds şəhərinin inkişaf etdirilməsi məqsədilə sektor planının maliyyələşdirilməsinə dair Donor ölkələrin Konfransı"nın nəticəsi olaraq Azərbaycanın Fələstinə 5 milyon dollar maliyyə yardımı etməsi xatırlanaraq, ölkəmizin, eyni zamanda, BMT-nin UNRWA təşkilatı vasitəsilə də Fələstinə yardım etdiyi vurğulandı.

"Heydər Əliyev adına Beynəlxalq Təhsil Qrantı" hesabına 23, ümumilikdə isə 37 fələstinli tələbənin Azərbaycanda təhsil alması yüksək qiymətləndirildi.

Baş nazir bunlara görə dövlətimizin başçısına minnətdarlığını bildirdi.

Söhbət zamanı Fələstinin bəzi kənd təsərrüfatı məhsullarının ölkəmizə güzəştli şərtlərlə ixracı məsələsi müzakirə olundu, qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

# "John Deere" şirkəti Azərbaycanla əməkdaşlığı genişləndirməkdə maraqlıdır

## Şirkətin nümayəndə heyəti dövlət başçımızın qəbulunda

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 16-da "John Deere" şirkətinin MDB və Mərkəzi Asiya ölkələri üzrə prezidenti, "John Deere Walldorf International" MMC-nin Baş icraçı direktoru Çaba Leykonu və şirkətin MDB üzrə vitse-prezidenti Peter Zakseni qəbul edib.



AZƏRTAC xəbər verir ki, söhbət zamanı dövlətimizin başçısının Çaba Leyko ilə ötən il Bakıda görüşü məmnunluqla xatırlandı.

Qonaqlar ölkəmizdə gördükləri inkişaf proseslərinin onlarda dərin təəssürat hissi yaratdığını dedilər.

"John Deere" şirkətinin Azərbaycanda uğurlu fəaliyyətinə toxunan Çaba Leyko ölkəmizlə əməkdaşlığı genişləndirməkdə maraqlı olduqlarını bildirdi.

Görüş əsnasında ölkəmizdə kənd təsərrüfatının geniş potensialının olduğu vurğulandı, bu sahədə müasir texnologiyaların tətbiq edildiyi bildirildi, kənd təsərrüfatının inkişafı ilə bağlı dövlət səviyyəsində həyata keçirilən işlərə toxunuldu və bu xüsusda qəbul olunmuş yeni Dövlət Proqramının əhəmiyyəti qeyd edildi.

Söhbət zamanı Azərbaycanla "John Deere" şirkəti arasında gələcək əməkdaşlıqla bağlı məsələlər müzakirə edildi, kənd təsərrüfatının bir çox istiqaməti üzrə əlaqələrin genişləndirilməsi üçün yaxşı imkanların olduğu bildirildi.

Qeyd edək ki, "John Deere" 1837-ci ildə ABŞ-da yaradılıb. Kənd təsərrüfatı, tikinti və meşəçilik avadanlıqlarının istehsalı sahəsində qlobal miqyasda aparıcı şirkətlərdən biri olan "John Deere"nin 30-dan çox ölkədə zavodları və ofisləri fəaliyyət göstərir.

# Azərbaycanın qətiyyətli mövqeyi: İnsan hüquqları ümumbəşəri məsələdir

**Azərbaycanın böyük məsuliyyətlə ev sahibliyi etdiyi beynəlxalq tədbirlər adətən qlobal gündəliyin ən aktual məsələlərinin müzakirələri ilə yadda qalır. Bu baxımdan, yenicə başa çatan IV Şuşa Qlobal Media Forumu da istisnalıq təşkil etməyib. Forumun açılış tədbirində sualları cavablandıran Prezident İlham Əliyev beynəlxalq ictimaiyyətə bir sıra zəruri mesajlar ünvanlayıb, həmçinin dünyada yaranan çağırışlara Azərbaycanın yanaşmalarını ortaya qoyub. Dövlətimizin başçısı forumda, həmçinin dünyada insan hüquqları məsələsinə xüsusi diqqət çəkib.**

## Fərqli dövlətlərin fərqli yanaşmaları - Azərbaycan da ədalətsizliyə tuş gəlib

Prezident İlham Əliyevin forumda bəhs olunan mövzuda geniş şərh verməsi təsadüfi deyil. Əslində, insan hüquqları dünyada vahid hüquqi baza və müvafiq beynəlxalq konvensiyalara uyğun tənzimlənməlidir. Məntiqlə başqa yanaşma mümkün də deyil. Ancaq biz reallıqda başqa mənzərənin şahidi oluruq. Bəzi ölkələr və ayrı-ayrı beynəlxalq təşkilatlar insan hüquqları məsələsini milli dövlətlərə qarşı təzyiq alətinə çeviriblər. Bu sahədə də ikili standartların mövcud olması dərin təəssüf hissi doğurur. Prezident İlham Əliyevin vurğuladığı kimi, Azərbaycan da zaman-zaman belə ədalətsiz yanaşmalara tuş gəlir. Xüsusilə də artıq tarixdə qalan Qarabağ münaqişəsinin davam etdiyi otuz il ərzində Fransa kimi ölkələr, Avropa Şurası Parlament Assambleyası (AŞPA) kimi qurumlar bizə əsassız yerə təzyiqlər göstərməyə çalışırdılar. İşğalın ilk illərində Azərbaycanın təxminən bir milyon vətəndaşı doğma yurd yerlərini tərk etmək məcburiyyətində qaldılar. Onlar humanitar fəlakətlə üzləşmişdilər-çadırlarda, vaqonlarda, uyğunlaşdırılmış yarımçıq tikililərdə yaşamaq məcburiyyətində idilər. Demokratiyanı, bərabərliyi, insan haqlarını əsas devizi seçən Fransa və bu ölkənin Senatı, Milli Assambleyası isə azərbaycanlıların üzləşdiyi bu ağır vəziyyəti görməzdən gəlirdilər. Əksinə, Yelisey Sarayı işğalçılara, separatçı quruma davamlı dəstək göstərirdi. Fransadan olan siyasətçilər, parlamentarilər Azərbaycanın işğal altına düşmüş ərazilərini bir növ su yoluna çevirmişdilər, qaranlıq məqsədlər güdən get-gəlin arası kəsilmirdi.

İkinci Qarabağ müharibəsindən və 23 saatlıq lokal xarakterli antiterror əməliyyatından sonra isə vəziyyət dəyişdi. İndi Fransa siyasətçiləri və parlamentariləri, həmçinin AŞPA-nın bir sıra deputatları Azərbaycanı erməni əhalini Qarabağı tərk etmələrinə görə qınayırlar. Guya burada ermənilərin hansısa hüquqları pozulub. Halbuki antiterror əməliyyatından sonra ermənilər Qarabağı könüllü şəkildə tərk etmişlər və onlara qarşı Azərbaycan tərəfindən hansısa bir təzyiq göstərilməmişdir. Sual olunur: İndi ermənilərin təəssübünü çəkən dairələr nə üçün zamanında Ermənistan mülki əhaliyə qarşı ağır müharibə cinayətləri törədəndə ağızlarına su alıb susurdular? Budurmu ədalət, budurmu Avropa demokratiyası, budurmu insan hüquqlarının təssübünü çəkmək? "Bilirsiniz, biz Avropa Şurasına qəbul olunarkən mən Azərbaycan nümayəndə heyətinin ilk rəhbəri idim və Strasburqa gəlmişdim. Nümayəndə heyətimizin Avropa Şurası rəhbərliyindən eşitdiyi ilk fikirlərdən biri bu idi ki, insan hüquqları heç bir ölkənin daxili işi hesab edilə bilməz. Biz yaxşı tələbələr idik və bunu öyrəndik. İndi isə Bakı Təşəbbüs Qrupu müstəmləkəçilik, müstəmləkə əsarəti və müstəmləkəçilikdən irəli gələn bərabərsizlik məsələlərini qaldıranda, onlar ittiham olunurlar. Təkcə onlar deyil, hətta Azərbaycan Hökuməti də Fransanın daxili işlərinə qarışmaqda ittiham olunur. Halbuki biz belə etmirik", - deyə Prezident İlham Əliyev vurğulayıb.

## Bakı Təşəbbüs Qrupu müstəmləkəçiliyə qarşı mübarizəni qlobal gündəliyə çıxaran ən səmərəli qeyri-hökumət təşkilatıdır



Müstəmləkəçilk keçmişin ən eybəcər qalığıdır. Mütərəqqi dünya XXI əsrdə insan hüquqları ilə kəskin ziddiyyət təşkil edən müstəmləkəçiliyi qətiyyətlə rədd edir və ona birmənalı şəkildə "yox" deyir. Ancaq Fransa kimi ölkələr özlərinin müstəmləkə keçmişlərindən əl çəkmək istəmirlər. Bu ölkənin təxminən 500 illik müstəmləkəçilik tarixi var. Ancaq Yelisey Sarayı əsrlər boyunca Afrikada, okeaniyada ayrı-ayrı əraziləri öz nəzarəti altında saxlasa da, yerli xalqların mənafeyi naminə hansısa bir addım atmayıb. Əksinə, sərvətlər talanıb, yerli xalqların milli kimliyinə açıq-aşkar təcavüz olunub. O cümlədən Yeni Kaledoniya, Polineziya, Martinika və digər ərazilərdə ekologiya, insanların sağlamlığı ilə bağlı ciddi problemlər yaranıb. Fransa bir qayda olaraq nüvə sınaqlarını özünün Poleneziya kimi müstəmləkə ərazilərində keçirib və bu sınaqların mənfi təsirləri hələ də özünü qabarıq şəkildə göstərir.

Rəsmi Paris bu gün müstəmləkəçilik siyasətini yeni formada, o cümlədən də iqtisadi təzyiq vasitəsi ilə davam etdirməyə çalışır. Müstəmləkə xalqları isə artıq bununla barışmaq istəmirlər. Buna görə də getdikcə daha çox müstəmləkə ölkələrində "Rədd ol, Fransa!" şüarları daha ucadan eşidilir. Rəsmi Paris isə ən çirkin vasitələrə əl atmaqla azadlıq mübarizəsinə başlayan xalqların səsini boğmağa çalışır.

Azərbaycan xalqı da müstəmləkə əsarətinin nə demək olduğunu yaxşı bilir. Çünki biz də onilliklər boyunca müstəmləkə şəraitində yaşamışıq. Adımız respublika olsa da, hüquqlarımız məhdud idi. Bizim də zəngin sərvətlərimiz talanıb. Bunun əvəzində isə xalqımıza qarşı ayrı-seçkilik edilib. Keçmiş sovet rejimi dönəmində mərkəzi hakimiyyətin qərarı ilə azərbaycanlıların indiki Ermənistan ərazisindən bir neçə dəfə deportasiyaya məruz qalmaları bunun əyani təsdiqidir. Onu da xatırladaq ki, zamanında keçmiş ittifaqın ehtiyaclarının qarşılanması üçün milyardlarla ton neft verən Azərbaycan müstəqillik qazandıqda təbii qazsız və elektriksiz qalmışdı. Buna görə də müstəqil Azərbaycan tarixdə baş verənlərdən dərs çıxardaraq dünyada insan haqlarının pozulması, müstəmləkəçiliyin müxtəlif təzahürləri ilə barışmır və gələcəkdə də barışmayacaq.

Bu mənada, Bakı Təşəbbüs Qrupu (BTQ) bir növ Azərbaycanın səsidir. BTQ 2023-cü il iyulun 6-da Qoşulmama Hərəkatının Əlaqələndirmə Ofisinin Nazirlər Toplantısı çərçivəsində Bakıda keçirilmiş "Müstəmləkəçiliyin tamamilə aradan qaldırılmasına doğru" beynəlxalq konfransda tədbir iştirakçılarının yekdil qərarı ilə təsis edilib. BTQ ötən 3 il ərzində dünyanın siyasi gündəmində demək olar ki, unudulmuş kolonializm və neokolonializm problemlərini yenidən gündəmə gətirib, dekolonizasiya prosesinin əsas hərəkətverici platformasına çevrilib. Bu xüsusda müstəqillik uğrunda legitim mübarizə aparan tərəflərə dəstək verilib, kolonizə edilmiş xalqların azadlığı istiqamətində ardıcıl və nəticəyönümlü fəaliyyət göstərilib. Fəaliyyət göstərdiyi üç il ərzində BTQ tərəfindən 40-dan çox beynəlxalq konfrans təşkil edilib, bunlardan 10-u BMT-nin müxtəlif qərargahlarında keçirilib. Eyni zamanda, 50-dən çox nəşr hazırlanıb, 10 əməkdaşlıq memorandumu imzalanıb. Bu dövr ərzində BTQ 25-dən çox ölkə və dənizaşırı ərazi ilə sıx əməkdaşlıq əlaqələri qurulub.

Ən böyük uğurlar sırasında paytaxtımızda Beynəlxalq Dekolonizasiya Cəbhəsinin - FID (fransızca: Front international de decolonisation) təsis edilməsini göstərmək olar. Beynəlxalq Dekolonizasiya Cəbhəsinin təsis qurultayında Fransa və Niderland müstəmləkəçiliyindən əziyyət çəkən Korsika, Melaneziya, Polineziya, Karib regionu, Antil adaları qrupu, Boneyra və Sen-Martindən olan 17-dən çox siyasi partiya və müstəqillik hərəkatının nümayəndələri iştirak ediblər. Vahid cəbhənin yaradılması kolonizə edilmiş xalqların səylərinin birləşdirilməsi, həmrəyliyin gücləndirilməsi və birgə mübarizə aparması istiqamətində mühüm addımlardan biri kimi yadda qalıb.

2024-cü il oktyabrın 22-də BMT-nin Cenevrə Ofisində İnsan Hüquqları Komitəsinin 142-ci sessiyası çərçivəsində BTQ tərəfindən "Mülki və Siyasi Hüquqlar Haqqında Beynəlxalq Pakt və Fransız müstəmləkəçiliyinin nəticələri" adlı hesabat Komitəyə təqdim edilib. Sözügedən hesabatda təqdim edilmiş faktlara (insan hüquqların pozulması halları) əsasən BMT-nin İnsan Hüquqları Komitəsi Fransadan 2024-cü ilin may ayında Kanakidə - Yeni Kaledoniyada baş vermiş hadisələrə dair hesabat tələb edib. Nəticədə, müstəmləkəçilikdən əziyyət çəkən xalqların səsi qlobal gündəmə daşınıb, nüfuzlu beynəlxalq platformalarda müzakirə edilib. BTQ-nin uğurlu fəaliyyəti sayəsində, Azərbaycan dünyada kolonializmə qarşı mübarizənin mərkəzi, baş qərargahı kimi tanınır və müstəmləkəçilikdən əziyyət çəkən ərazilər ölkəmizə ümid yeri kimi baxır. BTQ-nin uğurlu fəaliyyətini dəyərləndirən Prezident İlham Əliyev "İnsan hüquqları ilə bağlı məsələlər ümumbəşəri məsələlərdir. Bakı Təşəbbüs Qrupu isə bu mövzunu qlobal gündəliyə çıxaran, bəlkə də ilk və ən səmərəli qeyri-hökumət təşkilatıdır", - deyə vurğulayıb.

***Mübariz FEYİZLİ***

# Azərbaycanın gələcəyə hesablanan qlobal gündəliyi



**Azərbaycanın gələcəyə hesablanan milli inkişaf strategiyası konseptual əsaslara söykənir. Bir qayda olaraq hədəflər müəyyənləşdirilərkən qlobal səviyyədə yaranan çağırışlar və ölkənin reallıqları, cəmiyyətin sosial sifarişləri mütləq qaydada nəzərə alınaraq uzlaşdırılır. Prezident İlham Əliyev bu günlərdə Şuşa Qlobal Media Forumunda vurğulayıb ki, hazırda respublikamızın qlobal gündəliyində çoxlu sayda ciddi məsələlər var və onlar prioritetlik baxımından bir-birindən fərqlənmirlər. “Gündəliyimizdə kifayət qədər geniş məsələlər var. Onlardan hər hansı birini birinci, ikinci, üçüncü və dördüncü sıraya yerləşdirmək çətindir”, - deyə dövlətimizin başçısı forumda sualları cavablandırarkən bildirib.**

## Əsas məsələlərdən biri - davamlı inkişafın təmin edilməsi

Son dövrlərdə dünyada yaşanan bir sıra kataklizmlər milli dövlətlər üçün çox ağır sınaqlar olub. O cümlədən bəzi dövlətlər müharibələrin, iqtisadi böhranların, pandemiyanın gətirdiyi çətinliklərə dözə bilməyiblər və bir sıra hallarda xarici güclərdən, beynəlxalq maliyyə qurumlarından asılı vəziyyətə düşüblər. Azərbaycan bu kimi fəsadlardan yan ötən dövlətdir. Bunun təməlində dayanan əsas amil isə Prezident İlham Əliyevin müəyyənləşdirdiyi davamlı inkişaf strategiyasıdır. Dövlətimizin başçısı Şuşa Qlobal Media Forumunda bir daha vurğulayıb ki, qlobal gündəliyimizdə dayanan əsas məsələlərdən biri davamlı inkişafın təmin edilməsidir.

Azərbaycanın Prezident İlham Əliyev tərəfindən müəyyənləşdirilən davamlı inkişaf strategiyası çoxvektorludur. Əlbəttə ki, burada ölkənin iqtisadi potensialının artırılması xüsusi diqqət mərkəzində saxlanılır. Ulu Öndərin “İqtisadiyyatı güclü olan dövlət hər şeyə qadirdir” fikri son 22 ildə Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasətin əsas qayəsini təşkil edib. Ötən dövrdə dövlətimizin başçısının qətiyyətli siyasi iradəsi ilə geniş əhatə dairəsinə malik olan islahatlar reallaşdırılıb, ölkədə iqtisadi inkişaf üçün bütün şərtlər təmin edilib. Bu illər ərzində transmilli şirkətlərlə imzalanan müqavilələr üzrə ölkəmizə gələn gəlirlərin müəyyən bir hissəsi məqsədyönlü şəkildə qeyri-neft sektorunun inkişafına yönəldilib. Respublikamızda sahibkarlıq mühiti davamlı olaraq optimallaşdırılıb, yerli istehsal və ixrac təşviq edilib, respublikamızın investisiya cəlbediciliyi artırılıb. Ötən dövrdə Azərbaycan iqtisadiyyatının 4 dəfədən çox genişlənməsi kifayət qədər böyük uğurdur. Ölkənin strateji valyuta ehtiyatları 2 milyard dollardan 86 milyard dollara qədər artıb. Güclü iqtisadi potensial və geniş maliyyə imkanları Azərbaycanın manevr imkanlarını qat-qat artırır. Qürurverici haldır ki, bu gün respublikamız dünya üzrə xarici borcu ən aşağı səviyyədə olan ölkələr sırasında yer alır.

Respublikamızda 2003-cü ildən etibarən Prezident İlham Əliyevin müvafiq sərəncamları əsasında hər bölgənin iqtisadi potensialı və əmək ənənələri nəzərə alınmaqla hazırlanaraq qəbul edilən bir neçə regional inkişaf proqramı uğurla icra olunub. Bu proqramların icrası çərçivəsində həmçinin müxtəlif təyinatlı infrastruktur obyektlərinin inşası diqqət mərkəzində saxlanılıb. İnfrastruktur obyektlərinin tikintisi bir qayda olaraq dövlət əsaslı vəsait qoyuluşu hesabına aparılıb. Yüksək standartlar səviyyəsində reallaşdırılan layihələr sayəsində həm ölkə üzrə iqtisadi fəallıq, investisiya cəlbediciliyi artıb, həm də insanların həyat şəraiti əhəmiyyətli dərəcədə yaxşılaşıb.

Azərbaycan özünün iqtisadi imkanlarına əsaslanmaqla dərin məzmunlu sosial siyasət həyata keçirir. Dövlətimizin başçısı müxtəlif auditoriyalar qarşısında etdiyi çıxışlarında dəfələrlə birmənalı şəkildə bildirib ki, ölkədə aparılan siyasətin mərkəzində Azərbaycan vətəndaşlarının maraqları və mənafeyi dayanır. Müəyyənləşdirilən bu siyasi kurs praktiki müstəvidə davamlı tədbirlərlə və islahatlarla təsdiqlənir. Ötən dövrdə Prezident İlham Əliyev ölkə vətəndaşlarının rifah halının yaxşılaşmasını, gəlir imkanlarının artırılmasını, məşğulluğun daha geniş miqyasda təmin edilməsini hədəfləyən çoxsaylı sənədlər imzalayıb, bir neçə proqramı təsdiqləyib. Hazırda respublikamızda ədalətli resurs bölgüsü siyasətinə uyğun olaraq sayca beşinci sosial paket uğurla reallaşdırılmaqdadır ki, bu da yüksək vətəndaş məmnunluğunu şərtləndirir.

Bütövlükdə, respublikamızda dövlət başçısının 2021-ci il 2 fevral tarixli sərəncamı ilə təsdiqlənmiş “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər”ə uyğun olaraq hazırlanan “Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası”nın icrası uğurla təmin edilməkdədir. Bunun davamı olaraq isə Prezident İlham Əliyevin 30 may 2025-ci il tarixli müvafiq sərəncamına uyğun olaraq 2027-2030 cu illəri əhatə edən yeni sosial-iqtisadi inkişaf strategiyası hazırlanır.

## Rəqəmsal transformasiyanın və süni intellektin inkişafı

Hər dövrün inkişaf səviyyəsinə uyğun olaraq qarşıya yeni çağırışlar çıxır. Dördüncü sənaye inqilabı bütün dünyanı rəqəmsal transformasiyalarla üz-üzə qoyub. Azərbaycan da özünün inkişaf strategiyasında bu mühüm məqamı nəzərə alır. “Gündəliyimizin əsas istiqamətlərindən biri də rəqəmsal transformasiyanın və süni intellektin inkişafıdır. Bu yaxınlarda mən həmin məsələlərin əlaqələndirilməsi məqsədilə xüsusi sərəncam imzaladım və bununla da bu sahə üzrə müvafiq komissiya, birgə işçi qrup, yəni vahid şura yaradıldı”, - deyə Prezident İlham Əliyev vurğulayıb.

Müasir dövlət kimi inkişaf edən Azərbaycan indiki dövrdə yaranan yeni çağrışarı və ölkəmizin reallıqlarını nəzərə almaqla rəqəmsal idarəçilik modelinə keçidi özünün prioritetlərindən biri kimi müəyyənləşdirib. Effektiv keçidi təmin etmək məqsədilə institusional və hüquqi bazanın yaradılması istiqamətində müəyyən yol keçilib və ilk nəticələr əldə olunub. Cari ilin yanvar ayında Prezident İlham Əliyevin müvafiq fərmanı ilə “Rəqəmsal dövlət maliyyəsi” informasiya sistemi haqqında Əsasnamə” təsdiqlənib. Fevral ayında dövlətimizin başçısının sədrliyi ilə ölkəmizin yeni rəqəmsal inkişaf strategiyasına həsr olunmuş müşavirə keçirilib və “Rəqəmsal inkişafın sürətləndirilməsinə dair 2026-2028-ci illər üçün Fəaliyyət Planı” təsdiqlənib. Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın sədrliyi ilə Rəqəmsal İnkişaf Şurası çevik fəaliyyət göstərir. İyunun 29-da Mehriban Əliyevanın sədrliyi ilə Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf Şurasının ilk iclası keçirilib. İclasda önəmli müzakirələr aparılıb, Birinci vitse-prezident müvafiq qurumlara öz tapşırıqlarını verib.

Beləliklə, ölkədə rəqəmsal idarəçilik modelinə keçidlə bağlı dövlətin siyasi iradəsi ortadadır. Buna uyğun olaraq ölkə miqyasında rəqəmsal idarəçilik modelinə keçidin, mərkəzi və yerli icra strukturlarında fəaliyyətlərin elektron platformalar üzərindən həyata keçirilməsinin əhatə dairəsi getdikcə genişlənir. Fəaliyyət planı rəqəmsallaşma, süni intellekt, innovasiya ekosistemi və kibertəhlükəsizlik istiqamətləri üzrə 58 təşəbbüsü əhatə edir. Artıq rəqəmsallaşma istiqamətində 40 dövlət qurumu ilə Yol xəritələri hazırlanıb. Dövlət informasiya sistemlərinin hökumət buluduna miqrasiyası və yeni data mərkəzinin tikintisi üzrə işlər davam etdirilir. “Mygov” platformasının xidmət dairəsi genişlənir. Bu platformada son üç ayda istifadəçilərin sayı 2,7 milyondan 3,5 milyona çatıb.

Həmçinin ayrı-ayrı mərkəzi icra strukturlarında və onların yerli bölmələrində xidmətlərin elektron qaydada təqdim olunması genişlənir. Artıq yeni əsasnaməyə uyğun olaraq praktiki müstəvidə fəaliyyətlər həyata keçirilir. Maliyyə Nazirliyindən verilən məlumata görə, dövlət maliyyəsinin idarə edilməsi sahəsində səmərəliliyin və şəffaflığın artırılması istiqamətində həyata keçirilən islahatların tərkib hissəsi kimi, büdcə təşkilatları tərəfindən mal, iş və xidmətlərin satın alınması üzrə müqavilələrin hazırlanması, razılaşdırılması və icrasına nəzarət proseslərinin həyata keçirilməsi məqsədilə istifadəyə verilən “e-müqavilə” altsistemində cari ilin birinci yarısı üzrə yüksək istifadəçi aktivliyi qeydə alınıb.

Belə ki, hesabat dövrü ərzində 872 satınalan təşkilat sistemdə qeydiyyatdan keçib, 1487 təchizatçı isə platformaya uğurla qoşulub. İstifadəçilər tərəfindən sistemdə imzalanmış müqavilələrin 45,43 faizi xidmətlərin göstərilməsi, 40,2 faizi malların satınalınması, 14,37 faizi isə işlərin görülməsi ilə bağlı olub. Ümumilikdə, qeyd olunan dövr ərzində “e-müqavilə” altsistemi vasitəsilə ümumi məbləği 1 milyard manatdan çox olan 2414 müqavilə bağlanıb.

## İşğaldan azad olunmuş ərazilərə layiqli qayıdış

Prezident İlham Əliyevin Şuşa Qlobal Media Forumunda bildirdiyi kimi, Qarabağın bərpası və yenidən qurulmasının başa çatdırılması yeni strateji mərhələdə Azərbaycanın qlobal gündəliyində dayanan digər bir vacib məsələdir. Belə bir prioritetin müəyyənləşdirilməsi isə heç də təsadüfi deyildir. Ermənistanın ötən əsrin doxsanıncı illərinin əvvəllərində havadarlarının dəstəyi ilə ölkəmizə qarşı həyata keçirdiyi işğalçılıq siyasəti nəticəsində bir milyondan artıq insan öz doğma yurd yerlərini tərk etmək məcburiyyətində qaldı. On illər boyu tikib qurduqları mülklərini itirən həmin insanlar üç onillik ərzində çətin şəraitdə yaşadılar, qaçqınlıq, məcburi köçkünlük həyatına, məhrumiyyətlərə dözdülər. Bütün bunlara baxmayaraq, yurd yerlərinin nisgili onların qəlbindən heç vaxt çıxmadı. Həmin insanlar düz üç onillik ərzində doğma torpaqlarına - Şuşaya, Qubadlıya, Laçına, Füzuliyə, Zəngilana, Cəbrayıla və digər şəhər və kəndlərimizə qayıdacaqları günü səbirsizliklə gözlədilər. Dövlətimiz, Prezidentimiz də onlara daim ümid verdi. Müzəffər Ordumuzun Zəfəri sayəsində artıq doğma torpaqlara geri dönüş vaxtı gəlib çatıb.

Güclü Azərbaycan dövləti qaçqın və məcburi köçkün soydaşlarımızın işğaldan azad olunan ərazilərə Böyük Qayıdışını layiqli şəkildə təmin etmək əzmi nümayiş etdirir. Böyük Qayıdışa dair birinci Dövlət Proqramı 2022-2026-cı illəri əhatə edir, ikinci mərhələ isə 2027-2030-cu illəri əhatə edəcək. İşğaldan azad edilmiş ərazilərə Böyük Qayıdış məqsədinin reallaşdırılması üçün əhalinin dayanıqlı məskunlaşması təmin olunacaq. Əhalinin dayanıqlı məskunlaşması ərazilərdə planlaşdırılan zəruri ilkin şərtlərin yaradılması ilə dəstəklənəcək. İşğaldan azad edilmiş ərazilərin təhlükəsizlik sistemi və infrastrukturla tam şəkildə əhatəsinə nail olunacaq. Qabaqcıl şəhərsalma qaydaları nəzərə alınmaqla bölgədə yaşayış və qeyri-yaşayış kompleksləri inşa ediləcək, müasir infrastruktura malik “ağıllı şəhər və ağıllı kənd” konsepsiyaları davam etdiriləcək. Bu əsasda bütün bölgə qabaqcıl standartlara uyğun sosial-iqtisadi və mədəni infrastrukturla tam təmin ediləcək. Kommunal xidmətlər şəbəkəsi, xüsusilə tullantıların səmərəli idarə edilməsi sistemi qurulacaq. Sosial xidmət infrastrukturu bərpa olunacaq. Nəticədə, ilkin strateji mərhələdə əhalinin təhlükəsiz, ləyaqətli və dayanıqlı əsasda planlaşdırılan məskunlaşmasına nail olunacaq.

Qeyd etmək yerinə düşər ki, güclü və məsuliyyətli dövlət olan Azərbaycan 11 min kvadratkilometri əhatə edən işğaldan azad olunmuş ərazilərin yenidən qurulmasına və bərpasına müharibə başa çatdıqdan dərhal sonra başlayıb. Aradan az vaxt ötməsinə baxmayaraq, artıq işğaldan azad edilmiş ərazilərdə çoxlu sayda infrastruktur layihələrinin icrası uğurla başa çatıb. Yeni layihələrin icrası da intensiv şəkildə davam etdirilir. Qaçqın və məcburi köçkün soydaşlarımızın doğma yurd yerlərində məskunlaşdırılması da uğurla davam etdirilir. Hazırda işğaldan azad olunmuş ərazilərdə bu yerlərdə çalışan mütəxəssislərlə və təhsil alan tələbələrlə birlikdə təxminən 90 min insan yaşayır. Bu, doğma Qarabağımızın dirçəlməsi deməkdir. Azad ərazilər dünyanın cənnət guşəsinə çevrilməkdədir.

## Bir nömrəli prioritet - təhlükəsizlik və ölkənin müdafiə qabiliyyətinin gücləndirilməsi

Prezident İlham Əliyevin bildirdiyi kimi, enerji təhlükəsizliyi bundan sonra da qlobal gündəliyin əsas mövzularından biri olaraq qalacaq. İndiyədək ölkəmizdə bu sahədə böyük işlər görülüb və reallaşdırılan layihələr sayəsində respublikamızın enerji müstəqilliyi tam təmin olunub. Hazırda Azərbaycan yerli istehsal hesabına həm daxili tələbatı ödəyir, həm də müəyyən həcmlərdə elektrik enerjisini xarici bazarlara ixrac edir.

Həmçinin artan tələbat nəzərə alınmaqla yeni layihələrin icrası da gündəmdədir. O cümlədən Azərbaycan özünün zəngin potensialına əsaslanmaqla enerji transformasiyasını da uğurla təmin edir və bu sahədə iddialı hədəflər müəyyənləşdirilib. Qeyd edək ki, respublikamızın bərpaolunan enerji sahəsində çox böyük potensialı var. Təkcə Qarabağda ümumi gücü 340 meqavat olan su elektrik stansiyaları artıq istifadəyə verilib. Bundan əlavə, növbəti bir il ərzində 340 meqavat gücündə Günəş elektrik stansiyalarının tikintisi də başa çatdırılacaq. Buna görə, elektrik enerjisinin Avropa bazarına ixracı qlobal gündəliyimizin əsas istiqamətlərindən biri kimi müəyyənləşdirilib.

Dünyada getdikcə artmaqda olan geosiyasi gərginliklər şəraitində milli dövlətlər üçün yaranan əsas çağırış təhlükəsizliklə bağlıdır. Hazırda beynəlxalq münasibətlər sisteminin, hüquq qaydalarının pozulması ciddi narahatlıq doğurur. Yeni dünya nizamı formalaşmaqdadır və təəssüf ki, biz burada güc amilinin önə çıxdığını müşahidə edirik. Yeni strateji mərhələdə Azərbaycanın gündəliyində dünyada izlənilən bu kimi proseslər mütləq qaydada nəzərə alınıb. “Mövcud şəraitdə isə yəqin ki, bir nömrəli prioritet təhlükəsizlik və müdafiə qabiliyyətinin daha da gücləndirilməsidir. Çünki təhlükəsizlik məsələləri və təhdidlər bizim region üçün kitablardan oxuduğumuz anlayışlar deyil - biz bu reallıqla hər gün üz-üzəyik.

Beləliklə, gündəliyimiz kifayət qədər genişdir. Bunu bir cümlə ilə ifadə etməli olsam, deyərdim ki, əsas məqsədimiz müdafiə potensialımızı gücləndirmək, milli maraqlarımızı qorumaq və mümkün qədər çox ölkə ilə praktik və səmərəli əməkdaşlıq münasibətləri qurmaqdır”, - deyə Prezident İlham Əliyev vurğulayıb.

*Mübariz ABDULLAYEV*

# Azad ərazilər “yaşıl enerji” regionuna çevrilir

## Bölgədə istifadəyə verilən SES-lər Azərbaycanın bərpaolunan enerji gücünün artmasında mühüm rol oynayır



Məlum olduğu kimi, Prezident İlham Əliyev Laçın rayonuna səfər çərçivəsində Hoçaz çayının üzərində yerləşən 14,7 meqavatlıq “Ağbulaq-1”, 14,25 meqavatlıq “Ağbulaq-2” və 4 meqavatlıq “Şeylanlı” su elektrik stansiyalarının onlayn formatda açılışını edib. Laçın rayonunun mürəkkəb dağlıq relyefində, dəniz səviyyəsindən 2150 metr yüksəklikdə yerləşən 14,7 MVt-lıq “Ağbulaq-1” Su Elektrik Stansiyası ölkə energetiklərinin icra etdiyi ən çətin mühəndislik layihələrindən biridir. “Ağbulaq-1”stansiyasında ildə 93,2 milyon kVt-saat ekoloji təmiz elektrik enerjisi istehsal olunacaq. Bu, hər il 21 milyon kubmetr təbii qaza qənaət edilməsinə, 37 min ton karbon emissiyasının qarşısının alınmasına və təxminən 37 min nəfərin elektrik enerjisinə olan tələbatının “yaşıl enerji” hesabına ödənilməsinə imkan verəcək.

Hoçaz çayı üzərində inşa edilən 14,25 MVt-lıq “Ağbulaq-2” Su Elektrik Stansiyası isə ildə 87,3 milyon kVt-saat elektrik enerjisi istehsal edəcək. Bunun nəticəsində hər il 19,6 milyon kubmetr təbii qaza qənaət olunacaq, atmosferə 35 min ton karbon emissiyasının atılmasının qarşısı alınacaq və təxminən 35 min nəfərin elektrik enerjisinə olan tələbatı “yaşıl enerji” hesabına təmin ediləcək. Digər stansiya - 4 MVt gücündə olan “Şeylanlı” SES-də ildə 19,4 milyon kVt-saat elektrik enerjisi istehsal ediləcək. Bu, hər il 4,4 milyon kubmetr təbii qaza qənaət edilməsinə, 8 min tondan çox karbon emissiyasının qarşısının alınmasına və təxminən 8 min nəfərin elektrik enerjisinə olan tələbatının “yaşıl enerji” hesabına təmin edilməsinə imkan verəcək.

## Qarabağ və Şərqi Zəngəzur - “Yaşıl Enerji Zonası”

Qeyd edək ki, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının “Yaşıl Enerji Zonası”na çevrilməsi barədə tapşırıqlarına uyğun olaraq, “AzərEnerji” ASC tərəfindən regionda su elektrik stansiyalarının tikintisi istiqamətində işlər ardıcıllıqla davam etdirilir. Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Laçının su ehtiyatları əsasən ölkə ərazisində formalaşır. Belə ki, Kiçik Qafqazın ölkə daxilində Tərtərçaydan sonra ikinci ən böyük çayı hesab olunan Həkəriçay və onun qolları olan Hoçaz, Şəlvə, Zabux çayları üzərində indiyədək ümumi gücü 72,6 MVt olan 11 su elektrik stansiyası tikilib. Laçın rayonunun 8-10 MVt-lıq elektrik tələbat gücü tam olaraq yaşıl enerji hesabına qarşılanır. Artıq qalan enerji isə ölkə enerjisisteminə ötürülür. Hazırda ümumi gücü 10,7 MVt olan 3 yeni SES-in tikintisi davam edir və onlar bu ilin sonunadək istismara veriləcək. Laçın rayonunun 2040-cı il perspektivində elektrik tələbat gücünün 80 MVt olacağı gözlənilir. Mövcud və tikintisi planlaşdırılan SES layihələri nəzərə alınmaqla, rayon 15 il sonra da tam olaraq “yaşıl enerji” ilə təmin ediləcək.

## Son 5 ildə azad ərazilərdə 40-a yaxın SES istifadəyə verilib

SES-lər Azərbaycanın müasir enerji gündəliyinin aparıcı xətti olan “yaşıl enerji” istehsalında mühüm yer tutmaqdadır. Son illər bu stansiyaların inşası istiqamətində ardıcıl addımlar atılır, xüsusilə də azad edilmiş ərazilərdə hər il yeni SES-lər istifadəyə verilir. Ortamüddətli inkişaf konsepsiyasında bu ərazilər Yaşıl Enerji Zonası elan edilib. Bölgədə müasir tələblərə cavab verən yeni güclərin və infrastrukturun yaradılması, qabaqcıl texnologiyaların tətbiqi, enerji təhlükəsizliyinin təmin edilməsi, bərpaolunan enerji mənbələrindən istifadənin genişləndirilməsi, enerji səmərəliliyi tədbirlərinin həyata keçirilməsi, işğaldan azad edilmiş ərazilərdə enerji infrastrukturunun qurulması istiqamətində tədbirlər davam etdirilib, hidroenerji, külək və günəş enerjisi, termal suların mənbələri hasilata hazır vəziyyətə gətirilib. Son beş ildə Laçın rayonunda 3,5 MVt gücündə “Mirik” və 3,1 MVt gücündə “Aşağı Malıbəy” kiçik su elektrik stansiyaları, həmçinin “Qoşasu”, “Seyidlər” və “Bülövlü” kiçik su elektrik stansiyaları istismara verilib.

Kəlbəcər rayonunun Vəng kəndində 5 MVt gücündə “Çaykənd-2”, 8,6 MVt gücündə “Aşağı Vəng”, 4,1 MVt gücündə “Toğanalı”, 8,8 MVt gücündə “Nadirxanlı” kiçik su elektrik stansiyaları istifadəyə verilib. Habelə Ağdərə rayonu ərazisində 14,7 MVt gücündə “Qozlukörpü” KSES-in inşası yekunlaşıb. Zəngilan və Qubadlı rayonlarında Bəsitçay və Həkəri çayı hövzələrində yerləşən silsilə su elektrik stansiyalarının inşası davam etdirilir. Ümumilikdə, son 5 ildə Laçında, Kəlbəcərdə və Suqovuşanda 40-a yaxın su elektrik stansiyası istismara verilib. Eyni zamanda, Cəbrayıl rayonu ərazisində, Araz çayı üzərində ümumi gücü Azərbaycan tərəfi üçün 140 MVt (100 MVt “Xudafərin”, 40 MVt “Qız Qalası”) olmaqla, iki su elektrik stansiyasının tikintisi hazırda davam etdirilir. Nəticədə, işğaldan azad edilmiş ərazilərində 500-600 MVt gücündə kiçik su elektrik stansiyaları inşa ediləcək. Həmin SES-lərin hər biri vahid şəbəkə ilə birləşdirilib və enerji axınının istənilən istiqamətə göndərilməsi və qəbul edilməsi təmin olunub.

Beləliklə, azad edilmiş ərazilər yaxın illərdə SES-lərin əsas mənbəyi və “yaşıl enerji” hubunun əsas mərkəzi olmaqla, Azərbaycanın bərpaolunan enerji gücünün artmasında mühüm rol oynayacaq.

**E.CƏFƏRLİ**

# Azərbaycan Avropa təsisatları ilə əlaqələri inkişaf etdirməkdə maraqlıdır...

## İlham Əliyev: Onlar Azərbaycan nümayəndə heyətinin səsvermə hüququnu bərpa etməlidirlər və ondan sonra Azərbaycanın nümayəndə heyəti qayıdacaq. Bu, dəqiqliklə dediyim kimi olmalıdır, əksinə olmalı deyil!




Cənubi Qafqaz geosiyasi məkanında lider dövlət statusunda çıxış edən, qlobal nizamın yeni və ən fəal aktorlarından biri kimi artıq orta güc statusu qazanan Azərbaycan özünün çoxşaxəli xarici siyasət strategiyası ilə seçilir. Bu siyasi kurs həm ikitərəfli münasibətlər kontekstində, həm də çoxşaxəli əlaqələr fonunda yerləşdiyi regionun geosiyasi və geoiqtisadi, bir sözlə, geostrateji təhlükəsizliyinə fundamental töhfələr verir, regional miqyaslı, qlobal xarakterli əməkdaşlıqlar platformasını müəyyənləşdirir. Müstəqil siyasət yürütməsi, sivilizasiyalararası dialoqa mühüm töhfələr verməsi, regional və beynəlxalq təhlükəsizliyin təmin olunmasında strateji tərəfdaş qismində yer alması Azərbaycanın beynəlxalq nüfuzunu artıran əhəmiyyətli faktorlar qismində çıxış edir.

Qeyd edək ki, Azərbaycanın Avropa kontingenti ilə əlaqələri də çoxşaxəli və dinamik əməkdaşlığa əsaslanır. Son illərdə Azərbaycanın siyasi, iqtisadi, enerji, nəqliyyat və humanitar sahələrdə Avropa ilə münasibətləri qarşılıqlı maraqlara əsaslanaraq daha da dərinləşib. Bu münasibətlər bərabərhüquqlu tərəfdaşlıq və qarşılıqlı fayda prinsipləri üzərində formalaşıb. Azərbaycan Avropa üçün strateji əhəmiyyət daşıyan etibarlı tərəfdaşdır - yeni nizama uyğun siyasi dialoqun formalaşması əlaqələri yeni bir məcraya daşıyıb. Bu gün Azərbaycan - Avropa münasibətləri qarşılıqlı maraqların uzlaşdığı, regionda sülh, sabitlik və inkişafın təmininə yönəlmiş strateji tərəfdaşlıq modelinə çevrilib.

## Borrell Avropa Komissiyası ilə Azərbaycan arasında münasibətləri demək olar ki, dağıtdı...

Bu gün Avropa təsisatları ilə Azərbaycan arasındakı münasibətlər əvvəlki dövrlərdən fərqlənir - bu, məhz həmin təsisatların Cənubi Qafqaza yanaşmasında, Azərbaycana yönəlik siyasətdə yaranan fərqlərdən irəli gəlir. Əgər bir müddət öncə Avropanın bir sıra təsistatları erməni işğalına haqq qazandırmaq, ölkəmizin ərazi bütövlüyünü və suverenliyini təmin etməsinə qısqanc münasibət göstərmək, xüsusilə də, ölkəmizə qarşı cinayətlər törədən bəzi şəxslərin azadlığa buraxılması kimi absurd iddialar irəli sürmək üzərindən Azərbaycana qarşı təzyiq göstərmək istəyirdilərsə və bəzi diplomatlar da - xüsusilə, Avropa Komissiyasının vitse-prezidenti Cozef Borell bu məsələdə xüsusi rol oynayırdılarsa, artıq vəziyyət dəyişib. Prezident İlham Əliyev IV Şuşa Qlobal Media Forumunun açılışında bildirib ki, Azərbaycanın Avropa təsisatları ilə münasibətlərində böyük fərq var. Avropa Komissiyası ilə əvvəlki Komissiya zamanı, xüsusən də Avropa diplomatiyasının əvvəlki rəhbəri cənab Borrelin dağıdıcı rolu səbəbindən asan vaxtlarımız olmayıb: “O, əslində, Avropa Komissiyası ilə Azərbaycan arasında münasibətləri demək olar ki, dağıtdı. İndi isə səbəbi məlumdur, çünki o, korrupsiyaya uğramış bəzi şəxslərlə, o cümlədən Beynəlxalq Cinayət Məhkəməsinin keçmiş prokuroru cənab Okampo ilə qəti şəkildə əlbir olmuşdur. Okampo öz şərhlərində açıq şəkildə etiraf etmişdir ki, cənab Borrel ondan məvacib alırdı. Bununla belə, cənab Okampoya pul hazırda Ermənistanda ev dustaqlığında olan rus-erməni oliqarxından gəlirdi.

Bir sözlə, bu, Avropa Komissiyasında mövcud olmuş anti-Azərbaycan qrupunun uzun zənciridir. Yaxşı haldır ki, cənab Borrel hazırda siyasətdə deyil. Ümid edirik, əbədi gedib”.

## Yeni Komissiya ilə münasibətlərimiz yaxşılaşmağa başladı...

Bəli, artıq situasiya dəyişib. Bu ayın əvvəlində Avropa Komissiyasının Prezidenti Ursula Fon der Lyayenin Bakıya səfəri Avropa Komissiyası ilə Azərbaycan arasında münasibətlərin yeni ştrixlərini ortaya çıxardı. Təsadüfi deyildi ki, Fon der Lyayen Bakıda keçirdiyi mətbuat konfransında bildirdi ki, Avropa İttifaqı bu regionun parlaq gələcəyinə inanır: “Beləliklə gəlin, dinc Cənubi Qafqaz naminə, Avropaya, Xəzər regionuna və Mərkəzi Asiyaya bağlantısı olan Cənubi Qafqaz naminə, aramızdakı həmişəkindən daha güclü tərəfdaşlıq naminə birlikdə çalışaq”.

Avropa Komissiyasının Bakıya, Prezident İlham Əliyevə xitabən səsləndirdiyi bu müraciətin altında uzun illərə söykənən bir sıra məsələlər toplanır:

- Avropa Komissiyası Prezident İlham Əliyevin yürütdüyü siyasətin düzgün olduğunu, gələcək, hətta qlobal inkişafa yönəldiyini, qitələrarası münasibətlərin sistemləşdirilməsində nümunəvi olduğunu bir daha təsdiqləyir:

- Avropa kontingenti Azərbaycanın bölgədə formalaşdırdığı yeni situasiyanın birləşdirici funksionallıq daşıdığını etiraf edir.

Bu, eyni zamanda Avropa Komissiyasının əvvəlki mövqeyinin yanlış olduğunun etirafı idi- yeni dövrdə münasibətlər daha praqmatik xarakter daşımalıdır. Dövlət başçısı Şuşada keçirilən Qlobal Media Forumunda bildirib ki, yeni Komissiya ilə münasibətlərimiz yaxşılaşmağa başladı: “Bu, xüsusən də əlaqələrin yenidən baxılması üçün qarşılıqlı böyük marağı gördüyümüzdən sonra baş verdi və biz bunları dəstəklədik. Sizə sadəcə deyə bilərəm ki, bu ilin bir neçə ayı ərzində Brüsseldən bir sıra mühüm səfər oldu. Martda Avropa İttifaqı Şurasının Prezidenti cənab Koşta, mayda Avropa diplomatiyasının rəhbəri xanım Kallas və iyulda Avropa Komissiyasının Prezidenti xanım Ursula Fon der Lyayen Azərbaycana gəldilər.

Onların və mənim ictimaiyyətə açıqlamalarımızda hər kəs iki tərəfin əməkdaşlıq səviyyəsindən razı qaldıqlarını görə bilər. Təsvir etdiyiniz tərəfdaşlıq sahələri, əlbəttə, nəinki ikitərəfli, o cümlədən daha geniş çərçivə üçün vacibdir”.

## Bu, suverenliyimizi bərpa etmək üçün gördüyümüz işlərə görə bizi cəzalandırmaq idi

Bütün bunlarla yanaşı, bəzi təşkilatlar - məsələn, AŞPA özünün fərqli standartlara söykənən mövqeyi, qərəzli və ədalətsiz qərarları ilə özünün elan etdiyi dəyərləri pozmaqdadır. Qeyd edək ki, Azərbaycan 2001-ci ildən AŞPA-nın üzvüdür. Vətən müharibəsinə qədərki ötən 20 il ərzində (2001-2020) isə Ermənistan regionda açıq təcavüzkar və işğalçı siyasət yürüdüb. Bir milyona yaxın azərbaycanlının fundamental hüquqları pozulub, öz doğma yurdunda, öz evində yaşamaq hüququ əlindən alınıb. Minlərlə günahsız insan milli mənsubiyyətinə görə ermənilər tərəfindən qətlə yetirilib, işğal olunmuş torpaqlarımızda etnik təmizləmə aparılıb. Beləliklə, Azərbaycan 20 il ərzində baş verənlərin aradan qaldırılması, ədalətin bərpası üçün AŞPA müstəvisində aktiv müzakirələrin təşkilinə və ya həllinə nail ola bilmədi - qurum bu məsələlərlə məşğul olmadığını və Ermənistan-Azərbaycan münaqişəsinin yalnız ATƏT çərçivəsində müzakirə oluna biləcəyini israr etdi. İndiki halda isə Azərbaycana qarşı iddiaların əsasında separatizmdən xilas edilmiş Qarabağ üzərindən yeni manipulyasiyalar həyata keçirilir ki, bu da regionda formalaşan yeni sülh prosesinə mane olmaq niyyətindən qaynaqlanır. Halbuki ötən dövrdə Ermənistan bir dəfə də olsun AŞPA-nın hər hansı bir sanksiyası ilə qarşılaşmamışdı. Amma 2023-cü ildə baş tutan antiterror tədbirlərinin ardından AŞPA özünün əsl simasını ortaya qoydu - esparatizmi dəstəkləməkdlə, qeyri-hüquqi mövqe nümayiş etdirməklə bu təşkilat heç də beynəlxalq hüququ və ədaləti dəstəkləmədiyini ortaya qoydu. Azərbaycanın nümayəndə heyətinin səs hüququnu məhdudlaşdırmaqla bağlı Avropa Şurası Parlament Assambleyasının qərarına etiraz olaraq Azərbaycan nümayəndə heyəti 2024-cü il yanvarın 24-də qurumdakı fəaliyyətini və əməkdaşlığını qeyri-müəyyən müddətə dayandırdığını rəsmən bəyan edib. Prezident İlham Əliyev IV Qlobal Media Forumunda bildirib ki, 2023-cü ilin sentyabrında ərazimiz separatçı və Ermənistanın işğalçı qüvvələrindən 100 faiz azad edilənə qədər Azərbaycan AŞPA-da heç vaxt sanksiya altında olmamışdır. 2023-cü ilin sentyabrında özünümüdafiə üçün legitim hüququmuzdan istifadə edərək, ərazimizi separatçıların qalıqlarından təmizlədik: “2024-cü ilin yanvarında onlar Azərbaycan nümayəndə heyətinin akkreditasiyasını sual altına qoydular, həmçinin o, səsvermə hüququndan məhrum edildi. Bu, bir növ insan hüquqları məsələsi ilə əlaqəli deyildi. Əgər onunla bağlı olsaydı, bunu xeyli əvvəl edərdilər. Bu, sadəcə, suverenliyimizi bərpa etmək üçün gördüyümüz işlərə görə bizi cəzalandırmaq idi. Ondan sonra Azərbaycanın nümayəndə heyəti çox müdrik qərar qəbul etdi və iclaslarda iştirakını dayandırdı. Çünki əgər bizim səsvermə hüququmuz olmayacaqsa, onda nəyə görə orada olmalıyıq?”

## AŞPA-dan Azərbaycana qarşı çox müəmmalı və ultimatum formasında bəzi tələblər var ki, onlar tamamilə qəbuledilməzdir

Azərbaycan hətta Avropa Şurası üzvlüyündən çıxmağı da ciddi şəkildə nəzərdən keçirir. Yeni siyasi münasibətlər sistemində mühüm yer tutan Azərbaycan özünün geostrateji qərarları və müdrik addımları ilə kontingentilərarası əlaqələrini möhkəmləndirib. Bu gün Azərbaycanın AŞ-ya deyil, AŞ-nın Azərbayana ehtiyacı var. Bakı qlobal təhlükəsizliyə verdiyi töhfələri, ədalətli yanaşması, bəzi münaqişələrin həllində uğurlu vasitəçilik missiyası, Şərq-Qərb kontentinin arasında əsas təmas nöqtəsi kimi mühüm bir status qazanıb. Yeni dövrdə AŞ-nın və ya onun Parlament Assambleyasının hansısa ədalətsiz qərarlarının bizim müstəqil siyasətimizə hər hansı bir təsiri ola bilməz. Bununla belə, hər zaman beynəlxalq hüquqa hörmətlə yanaşan Azərbaycan bir daha bu təşkilatın öz qərarlarını və mövqeyni yenidən dəyərləndirməyə çağırır. Prezident İlham Əliyev bildirib ki, biz hökumətimizdə AŞPA-da üzvlüyümüzün nəinki dondurulmasını, həmin təsisatdan tam çıxmağı da ciddi şəkildə nəzərdən keçiririk. Yəni bütövlükdə Avropa Şurasından çıxmağımızı nəzərdə tuturuq: “Lakin Avropa Şurasının Baş katibi cənab Alen Berse mənə yaxınlaşaraq bunu etməməyi xahiş etdi ki, vəziyyətin yaxşılaşdırılması üçün çıxış yolu tapılsın və mən bunu hələlik dayandırdım. Lakin əfsuslar ki, həmin vaxtdan etibarən heç nə baş vermir. AŞPA-dan Azərbaycana qarşı çox müəmmalı və ultimatum formasında bəzi tələblər var ki, onlar tamamilə qəbuledilməzdir. Əlaqələri biz pozmamışıq, onlar pozublar. Onlar bizi hər hansı legitim əsas olmadan səsvermə hüququndan məhrum etdilər. Belə olan halda nə edilməlidir? Onlar Azərbaycan nümayəndə heyətinin səsvermə hüququnu bərpa etməlidirlər və ondan sonra Azərbaycanın nümayəndə heyəti qayıdacaq. Bu, dəqiqliklə dediyim kimi olmalıdır, əksinə olmalı deyil!

Biz onlara qarşı heç bir səhv addım atmamışıq. Həmin ədalətsiz hərəkəti onlar ediblər və buna görə onlar da cəsarət tapıb geriyə çəkilməlidirlər, böyük səhvə yol verdiklərini etiraf etməlidirlər. Bilirsiniz, mən məsələ ilə bağlı öz fikrimi dəfələrlə bildirmişəm. Əgər Azərbaycan Avropa Şurasını tam tərk edərsə, ölkədə bunu hətta heç kəs hiss etməyəcək. Yəni orada olmaq və ya olmamaq çox şeyi dəyişmir”.

**P.İSMAYILOV**

# Gömrük sisteminin Rəqəmsal Logistika Platforması

## “Bir pəncərə” informasiya sisteminin ikinci mərhələsinə start verilib

Azərbaycanda Rəqəmsal Logistika Platformasının - “Bir pəncərə” informasiya sisteminin ikinci mərhələsinin icrasına başlanılıb. Mərasimdə çıxış edən Dövlət Gömrük Komitəsi sədrinin müavini Natiq Şirinov bildirib ki, yeni rəqəmsal mərhələdə qısa idxal bəyannaməsi və tranzit gömrük bəyannaməsinin “Bir pəncərə” informasiya sisteminə tam inteqrasiyası həyata keçiriləcək. Layihənin əsas məqsədi dövlət və biznes arasında qarşılıqlı əlaqələri asanlaşdırmaq, idxal, ixrac və tranzit əməliyyatlarında mövcud olan mürəkkəb və təkrarlanan prosedurları aradan qaldırmaq, bütün prosesləri vahid rəqəmsal mühitdə birləşdirməkdir.

Platforma vasitəsilə sahibkarlar və daşıyıcılar idxal, ixrac və tranzit əməliyyatları ilə bağlı bütün əsas dövlət xidmətlərinə vahid giriş əldə edəcəklər. Buraya nəqliyyat və kommersiya sənədlərinin rəsmiləşdirilməsi, gömrük və sərhədkeçmə prosedurları üçün tələb olunan lisenziya və icazələrin alınması, mənşə, fitosanitar sertifikatları, fumiqasiya aktları və digər zəruri sənədlərlə bağlı müraciətlərin elektron qaydada təqdim edilməsi daxildir. Bu platforma sayəsində bütün sənədlərin elektron qaydada əldə olunması, dövlət qurumları arasında məlumat və sənəd mübadiləsinin rəqəmsallaşdırılması, eləcə də yük və nəqliyyat vasitələrinə dair məlumatların vahid sistem üzərindən təqdim edilməsi prosedurları əhəmiyyətli dərəcədə sadələşdirəcək, vaxt itkisini və inzibati xərcləri minimuma endirəcək. İnformasiya sistemi mərhələli şəkildə istifadəyə verilir və dövlət qurumlarının elektron xidmətləri ardıcıl olaraq platformaya inteqrasiya edilir. Artıq ilk nəticələr əldə olunub və növbəti mərhələlərdə sistemin funksional imkanları daha da genişləndiriləcək.

Nəticədə idxal və tranzit əməliyyatları üzrə məlumatların vahid platforma üzərindən qəbulu, emalı və aidiyyəti dövlət qurumları arasında elektron mübadiləsi təmin olunacaq. Bununla da məlumatların təkrar təqdim edilməsi aradan qaldırılacaq, gömrük rəsmiləşdirilməsi və malların buraxılışı prosesləri daha operativ və səmərəli şəkildə təmin olunacaq.

## 30-dan çox dövlət qurumu sistemə inteqrasiya olunacaq

“Bir pəncərə” informasiya sistemi sadəcə rəqəmsal platforma deyil, ölkədə xarici ticarət, nəqliyyat və logistika sahəsini idarə etməyə yeni yanaşmanın əsas elementi kimi çıxış edir. Bu sistem həm də dövlət idarəçiliyində çevikliyi, şəffaflığı və səmərəliliyi artıracaq müasir rəqəmsal idarəetmə modelidir.

Rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini Rəhman Hümmətovun sözlərinə görə, Azərbaycan MDB məkanında xarici ticarət və nəqliyyat-logistika sahəsində fəaliyyət göstərən bütün əsas dövlət qurumlarını və iştirakçılarını vahid rəqəmsal platformada birləşdirən “Bir pəncərə” informasiya sistemini yaradan ilk ölkədir. Dünyada bu sistemi uğurla tətbiq edən ölkələrin sayı çox məhduddur. Sistem beynəlxalq ticarət və yükdaşımalarının daha sürətli və səmərəli təşkil edilməsinə, iqtisadi səmərəliliyin artırılmasına, xidmətlərin əlçatanlığının genişləndirilməsinə və Azərbaycanın regional logistika mərkəzi kimi mövqeyinin daha da gücləndirilməsinə xidmət edir. Mərhələli şəkildə bütün əməliyyatların, o cümlədən ixrac, idxal və tranzit proseslərinin “Bir pəncərə” informasiya sistemi üzərindən vahid rəqəmsal mühitdə həyata keçirilməsi nəzərdə tutulur. Ümumilikdə 30-dan çox dövlət qurumunun sistemə inteqrasiyası nəzərdə tutulur, bir qismi artıq tam inteqrasiya olunub və xidmətlərdən istifadə edir.



## Rəqəmsal gömrük modeli dünya ölkələri üçün nümunəvi brendə çevrilir

“Bir pəncərə” sistemi yalnız ölkədaxili proseslərin rəqəmsallaşdırılması ilə məhdudlaşmır, eyni zamanda xarici iqtisadi fəaliyyətdə Azərbaycanın tərəfdaş ölkələrlə əlaqələrinə açılan mühüm rəqəmsal platformadır. Nəqliyyat sənədlərinin rəqəmsallaşdırılması, məlumatların qarşılıqlı mübadiləsi və sistemlərarası inteqrasiyanın formalaşdırılması bu sistemin tərkib hissəsi kimi mühüm yer tutur.

Azərbaycan bu layihə çərçivəsində bir sıra beynəlxalq təşkilatlarla əməkdaşlıq edir, BMT-nin müvafiq standartları nəzərə alınmaqla tətbiq mexanizmləri üzərində işlər aparılır. Hazırda Türkiyə, Qazaxıstan və Rusiya ilə nəqliyyat sənədlərinin tam rəqəmsallaşdırılması istiqamətində addımlar atılır. Bu isə Rəqəmsal Hubun transformasiyasına keçidi də təmin edəcək. Həmçinin, xarici ticarət iştirakçıları ilə prefersial sazişlərin sayını artıracaq. Preferensial qaydalar iqtisadi əlaqələrin və ticarətin genişləndirilməsini təşviq etməklə, ədalətli rəqabət üçün əlverişli arxitektura quracaq.

Yeri gəlmişkən, Ümumdünya Gömrük Təşkilatının Baş katibi Yan Sanders bir neçə gün əvvəl ölkəmizdə səfərdə olarkən Azərbaycanın gömrük sistemində aparılan rəqəmsal islahatları yüksək dəyərləndirib. Cənab Sanders müasir gömrük rəsmiləşdirilməsi prosesləri və rəqəmsal xidmətlər, ölkəmizin logistika və təchizat zənciri imkanları, müasir anbar və yük emalı infrastrukturu, gömrük-logistika inteqrasiyası, eləcə də beynəlxalq ticarət və tranzit əməliyyatlarının səmərəli təşkili istiqamətində həyata keçirilən yenilikləri digər ölkələr üçün nümunəvi model adlandırıb.







## Üçüncü mərhələ - Asan gömrük dəhlizinin yaradılması

Növbəti rəqəmsal mərhələyə - “Bir pəncərə” sisteminin 3-cü fazasının tətbiqinə də hazırlıq işləri aparılır. Üçüncü mərhələdə idxal gömrük bəyannaməsinin, eləcə də digər gömrük prosedurlarına aid bəyannamələrin “Bir pəncərə” informasiya sisteminə inteqrasiyasının tamamilə yekunlaşdırılması nəzərdə tutulur. Bununla da, aidiyyəti dövlət qurumlarının gömrük rəsmiləşdirilməsi zamanı tələb olunan bütün icazə, razılıq və lisenziyaların elektron qaydada bu sistem vasitəsilə gömrük informasiya sisteminə ötürülməsi başa çatdırılacaq. Bu yanaşma sahibkarların müxtəlif dövlət qurumlarına ayrıca müraciət etməsi zərurətini minimuma endirəcək, məlumatların yalnız bir dəfə təqdim edilməsi prinsipini təmin edəcək, dövlət qurumları arasında koordinasiyanı daha da gücləndirəcək və xarici ticarət əməliyyatlarının tam inteqrasiya olunmuş rəqəmsal mühitdə həyata keçirilməsinə imkan yaradacaq.

Sistemin tam tədqiqi nəticəsində draktik maniyalar minimuma endiriləcək, sənədləşmə və icazələrin alınması prosesi sadələşdiriləcək, dövlət qurumları ilə biznes subyektləri arasında qarışılıqlı fəaliyyət daha operativ, şəffaf təşkil olunacaq. Yeni gömrük qaydaları sərhədkeçmə prosedurlarını asanlaşdırmaqla, vaxt və müddətləri qısaldacaq, türk dünyası arasında ticarətin optimallaşması baş verəcək. Sadələşdirilmiş gömrük dəhlizinin yaradılması TDT-nin ən mühüm hədəflərindən biri olan ticarət dövriyyələrinin həcmlərinin artırılmasına imkan yaradacaq. Bu isə yükdaşımaların sürətinin artırılmasına, logistik xərclərin azalmasına, xidmət keyfiyyətinin yüksəldilməsinə və nəticə etibarilə ixrac yönümlü malların beynəlxalq bazarlarda rəqabət imkanlarının artırılmasına və ölkəmizdən keçən beynəlxalq nəqliyyat dəhlizlərinin rəqabət qabiliyyətinin daha da yüksəldilməsinə mühüm töhfə verəcək.

“Bir pəncərə” informasiya sistemi Azərbaycanın tranzit potensialının daha da artırılmasına, xarici ticarətin inkişafına, dövlət xidmətlərinin keyfiyyətinin yüksəldilməsinə və ölkənin beynəlxalq nəqliyyat dəhlizlərində rəqabət qabiliyyətinin möhkəmləndirilməsinə mühüm töhfə verəcək. Bu layihə eyni zamanda Azərbaycanın rəqəmsal iqtisadiyyatının inkişafına və müasir logistika mərkəzi kimi mövqeyinin daha da güclənməsinə xidmət edəcək.

***E.CƏFƏRLİ***

# “İrəvanda Azərbaycanlı orta məktəbi”

Azərbaycan xalqı elə bir toplumdur ki, yaşadığı ərazilərdə mütləq qaydada özünün tarixi-mədəni irsini yaradır. Xalqımızın zəngin irs yaratdığı məkanlardan biri də indiki Ermənistanın ərazisidir. Tamerlan Əliyevin oxuculara təqdim etdiyi “İrəvanda Azərbaycanlı orta məktəbi” adlı kitabda zamanında bu qədim şəhərdə azərbaycanlı uşaqların elmi biliklərə yiyələndikləri təhsil ocağının yaranma tarixindən, burada çalışmış müəllimlərdən geniş bəhs olunub, pedaqoji kollektivin keçdiyi çətin, lakin şərəfli yol barədə geniş məlumat verilib. Nəfis tərtibatla işıq üzü görən kitab müəllifin uzun illəri əhatə edən araşdırmalarının nəticəsi olaraq araya-ərsəyə gəlib.

Təqdim olunan kitabı müəllifin tarixi yurd yerlərimizə dərin bağlılığının və Qərbi Azərbaycana qayıdış ideyasına dərin inamının ifadəsidir. İkinci Qarabağ müharibəsinədək bizim əsas ümummilli ideyamız ölkəmizin ərazi bütövlüyünü və suverenliyini təmin etməklə bağlı idi. Qalib Lider, Prezident İlham Əliyev milli gücü konsolidasiya etməklə xalqımızı addım-addım bu hədəfə yaxınlaşdırdı və 44 günlük Vətən müharibəsində, 23 saatlıq lokal xarakterli antiterror əməliyyatında qazanılan möhtəşəm qələbələrlə onun həyata keçirilməsinə nail oldu.

Bu, qonşu dövlətə qarşı ərazi iddiaları yox, beynəlxalq konvensiyalarla təsbit olunan insan hüquqları məsələsidir. Biz bu həqiqəti beynəlxalq ictimaiyyətə çatdırmalıyıq. Təqdim olunan kitabda Prezident İlham Əliyevin 24 dekabr 2022-ci il tarixində Qərbi Azərbaycandan olan bir qrup ziyalı ilə görüşündəki nitqindən bir parçaya yer verilib. Dövlətimizin başçısı vurğulayıb: “Qərbi Azərbaycan bizim tarixi torpağımızdır, bunu bir çox tarixi sənədlər təsdiqləyir, tarixi xəritələr təsdiqləyir, bizim tariximiz təsdiqləyir. Ancaq əfsuslar olsun ki, ermənilər Qarabağdakı kimi, Qərbi Azərbaycanda da bizim bütün tarixi, dini abidələrimizi yerlə-yeksan ediblər, dağıdıblar, azərbaycanlıların tarixi irsini silmək istəyiblər, ancaq buna nail ola bilməyiblər. Çünki tarix var, sənədlər var, xəritələr var. Bu binada nümayiş etdirilən, XX əsrin əvvəllərinə təsadüf edən xəritə bir daha onu göstərir ki, Qərbi Azərbaycan tarixi Azərbaycan diyarıdır, şəhərlərin, kəndlərin adları Azərbaycan mənşəlidir və biz yaxşı bilirik ki, indiki Ermənistan ərazisində tarix boyu Azərbaycan xalqı yaşayıb. İndi əsas vəzifə ondan ibarətdir ki, dünya ictimaiyyəti də bunu bilsin”.

Tarixi Azərbaycan torpaqlarında ermənilərin məskunlaşdırlıması güc mərkəzlərinin məkrli niyyətlərinin nəticəsi olaraq baş tutub. XX yüzillikdə bu ərazilərdə soydaşlarımıza qarşı düz dörd dəfə dəhşətli deportasiyalar həyata keçirilib. Azərbaycanlıların indiki Ermənistan ərazisindən sonuncu deportasiyası ötən əsrin səksəninci illərinin sonlarına təsadüf edib. Bununla da Ermənistan monoetnik dövlətə çevrilib.




Lakin tarix unudulmur. Doğma yurd yerlərinin həsrəti hər zaman bizim qəlbimizdədir. Hələlik Qərbi Azərbaycana qayıdış fiziki olaraq reallaşmasa da, artıq cəmiyyətimiz bu ümummilli ideyanı qəbul edib və onun reallaşacağına böyük ümid bəsləyir. Tamerlan Əliyevin böyük zəhmət hesabına hazırladığı kitabı Qərbi Azərbaycana qayıdış ideyasının gerçəkləşdirilməsi yolunda atılan mühüm addım kimi dəyərləndirmək mümkündür. Kitabda bəhs olunan məktəbin əsası 1922-ci ildə qoyulub. İrəvanda 7 illik azərbaycanlı məktəbi “tam olmayan məktəb” statusunda fəaliyyətə başlayıb və bu təhsil ocağının ilk direktoru İsmayıl Babayev təyin olunub. Məktəbdə bir sıra dərnəklər fəaliyyət göstərib, həmçinin “Zəngi” adlı qəzet buraxılıb. İrəvandakı 7 illik azərbaycanlı məktəbi 1919-cu ilin ortalarında 9 illik məktəbə çevrilib. Bütövlükdə, məktəbin pedaqoji kollektivi ayrı-seçkiliyə, repressiyalara məruz qalsa da, zamanında soydaşlarımızın biliklərə yiyələnmələrində, Qərbi Azərbaycanda savadsızlığın ləğv olunmasında mühüm rol oynayıb.

# Yeni həmlə...

## Yaxın Şərqdə gərginlik səngimir

Yaxın Şərqdə münaqişə yeni fazaya qədəm qoyub. Belə ki, ABŞ iyunun 15-də 24 saat ərzində İrana ikinci zərbə dalğası elan edib. ABŞ ordusunun məlumatına görə, zərbələr Hörmüz boğazından sərbəst keçən gəmiləri təhdid edən İran hərbi obyektlərini hədəf alıb. ABŞ Mərkəzi Komandanlığının (CENTCOM) verdiyi məlumata görə, ABŞ ordusu İran ərazisinə ikinci zərbə dalğası endirib. Bəyanatda deyilir: "Zərbələr qlobal ticarət üçün vacib olan beynəlxalq su yolu olan Hörmüz boğazından sərbəst keçən gəmiləri təhdid etmək üçün istifadə edilən İran hərbi obyektlərini hədəf alır. ABŞ ordusu Ali Baş Komandanın göstərişi ilə İranı məsuliyyətə cəlb edir".

Mərkəz həmçinin bildirib ki, ABŞ İran limanlarına gedən və ya İrandan gələn gəmilərə qarşı dəniz blokadası tətbiq edib. Bu tədbirlərin bir hissəsi olaraq, Amerika qüvvələri İranın Xarq adasına doğru gedən və bir neçə xəbərdarlığa məhəl qoymayan yüksüz Kürasao bayrağı altında üzən M/T Belma neft tankerini sıradan çıxarıb. Məlumata görə, ABŞ təyyarəsi gəminin tüstü bacasına Hellfire raketləri ilə zərbə endirib, bundan sonra tanker İrana doğru hərəkətini dayandırıb.

CENTCOM bildirib ki, blokadanın ilk 24 saatında Amerika qüvvələri tabe olan iki ticarət gəmisini istiqamətləndirib və tabe olmaqdan imtina edən bir gəmini sıradan çıxarıb. Agentlik məhdudiyyətləri tətbiq etməyə davam edəcəyini bildirib. ABŞ komandanlığının məlumatına görə, əməliyyatın ilk mərhələsi 90 dəqiqə davam edib və Hörmüz boğazında gəmilərə hücum etmək üçün istifadə edildiyi iddia edilən İranın hərbi imkanlarını zəiflətmək məqsədi daşıyıb.

**Hədəf Xarq adasıdır...**

"The Wall Street Journal" (WSJ) qəzeti adı çəkilməyən ABŞ rəsmisinə istinadən bildirib ki, Prezident Donald Tramp bir neçə günlük müzakirələrdən sonra İrana qarşı hərbi əməliyyatları gücləndirmək barədə düşünür. Prezidentin nəzərdən keçirdiyi variantlar arasında daha güclü hava hücumları, İranın Xarq adasını və Hörmüz boğazı boyunca digər əraziləri ələ keçirmək üçün quru qüvvələrinin göndərilməsi və gizli nüvə işləri üçün istifadə edilə bilən möhkəmləndirilmiş obyekti - Pickax Mountain tunel kompleksini bombalamaq var. WSJ yazır ki, son günlərdə Tramp İrana qarşı yeni hərbi variantların nəzərdən keçirilməsi barədə açıqlamalar verib, lakin bu, Tehranı yenidən danışıqlar masasına qaytarmağa məcbur etmək cəhdi də ola bilər.

Xarq adasının ələ keçirilməsi İranın neft sənayesinə zərər verəcək - paralel olaraq Amerika qüvvələrini də birbaşa hədəfə çevirəcək. Amerika rəsmiləri və analitikləri nəşrə bildiriblər ki, bu halda ABŞ qoşunları İran raketləri və dronları üçün asan hədəflərə çevriləcək. Onlar əlavə ediblər ki, eyni ssenari Fars körfəzindəki Əbu Musa, Böyük Tunb və Kiçik Tunb adalarına hücum halında da yaşana bilər.

Qeyd edək ki, Xarq adası İran sahillərindən təxminən 25-30 km məsafədə Fars körfəzinin şimalında yerləşən kiçik bir mərcan adasıdır. Təxminən 8 km uzunluğunda və 4 km enindədir. Adanın əsas əhəmiyyəti iqtisadidir: müharibədən əvvəl İranın bütün xam neft ixracatının təxminən 90 faizinin keçdiyi bu adada İranın ən böyük neft terminalı yerləşir.

# Miqrantlara qarşı qaydalar sərtləşdirilir

Dünyada getdikcə kəskinləşən geosiyasi və geoiqtisadi vəziyyət bir sıra sahələrdə də öz mənfi təsirlərini göstərməkdədir. O cümlədən son illərdə bütövlükdə Qərb dünyasında miqrantlara münasibət də hədsiz dərəcədə kəskinləşib. Acınacaqlı proseslər izlənilir. Bir tərəfdən təbii və qeyri-təbii amillər - iqlim dəyişmələri, ərzaq çatışmazlığı, işsizlik, dağıdıcı müharibələr səbəbindən milyonlarla insan doğma yurd yerlərini tərk etmək məcburiyyətində qalırlar, digər tərəfdən isə Qərb ölkələrində qapılar onların üzünə bağlanır. Bunu BMT-nin Miqrasiya Təşkilatının iki ildən bir təqdim etdiyi hesabatdan da görmək mümkündür. Artıq qurum 2026-cı il hesabatını təqdim edib. Beləliklə, 2024-cü ilin ortalarına olan məlumata görə, dünyada 304 milyon beynəlxalq miqrant var ki, bu da dünya əhalisinin təxminən 3,7 faizini təşkil edir. O cümlədən 2024-cü ilin sonuna olan göstəricilərə görə, qlobal miqyasda 120 milyondan çox insan (qaçqınlar, sığınacaq axtaranlar və məcburi köçkünlər daxil olmaqla) didərgin düşüb.

Əvvəlki illərlə müqayisə apardıqda ümumi olaraq miqrasiya axınında azalma tendensiyası var. Ancaq bu azalma heç də mənbə ölkələrində vəziyyətin yaxşılaşmasının təzahürü deyil. Əksinə, həmin ölkələrdə yaşayış üçün şərtlər daha da ağırlaşıb. Miqrasiya prosesində izlənilən azalma tendensiyası isə bilavasitə Qərb dövlətlərinin, necə deyərlər, arzulanmayan qonaqları birmənalı şəkildə qəbul etmək istəməmələrindn qaynaqlanır.

## Aİ sərhədlərindən qanunsuz keçmələrin sayında 37 faiz azalma

Afrikadan, müharibə alovuna bürünən Yaxın Şərq ölkələrindən miqrantların üz tutduqları ünvanlardan biri Avropa İttifaqı (Aİ) məkanıdır. Son illərdə tətbiq olunan sərtləşdirmə tədbirlərinin nəticəsidir ki, bu ilin ilk altı ayında Avropa İttifaqının xarici sərhədlərində qeyri-qanuni keçidlərin sayı ötən ilin eyni dövrü ilə müqayisədə 37 faiz azalaraq 49 mindən bir qədər çox olub.

Bu barədə Aİ-nin Sərhəd və Sahil Mühafizəsi Agentliyinin (Frontex) məlumatında bildirilib. Qeyd olunub ki, azalma tərəfdaş ölkələrlə davamlı əməkdaşlıq və qabaqlayıcı tədbirlər nəticəsində Avropaya istiqamətlənən qayıqların sayının azalması ilə bağlıdır.

Hesabata görə, Şərqi və Mərkəzi Aralıq dənizi marşrutları qeyri-qanuni miqrasiyanın əsas istiqamətləri olaraq qalır və ümumi keçidlərin 60 faizindən çoxunu təşkil edir. Şərqi Aralıq dənizi marşrutunda 16,6 mindən çox keçid qeydə alınıb ki, bu da illik müqayisədə 20 faiz azdır. Mərkəzi Aralıq dənizi marşrutu üzrə isə təxminən 14 min 300 keçid qeydə alınıb ki, bu göstərici ötən ilin eyni dövrü ilə müqayisədə iki dəfədən çox azdır.

Qərbi Afrika marşrutunda qeyri-qanuni keçidlərin sayı 67 faiz azalaraq təxminən 3700-ə enib. Qərbi Aralıq dənizi marşrutu isə artım qeydə alınan yeganə əsas istiqamət olub. Bu marşrut üzrə aşkarlanan keçidlərin sayı 17 faiz artaraq təxminən 7900-ə çatıb. Artım əsasən Əlcəzairdən gələn miqrantların sayının çoxalması ilə əlaqələndirilir.

Qeyd edək ki, Beynəlxalq Miqrasiya Təşkilatının məlumatına görə, ilin əvvəlindən indiyədək Aralıq dənizində 1300-ə yaxın insan həyatını itirib.

## SEPAH cavab atəşi açıb...

İslam İnqilabı Keşikçiləri Korpusunun (İİKK) Hava Hücumundan Müdafiə Qüvvələri İran üzərində səmada Amerikanın MQ9 pilotsuz təyyarəsini vurub. Bu barədə Tasnim tərəfindən məlumat verilib. Bildirilib ki, pilotsuz təyyarə Gndimeşk şəhərinin səmasında vurulub.

Bundan başqa SEPAH ABŞ-ın Küveyt və İordaniyadakı hərbi obyektlərinə zərbələr endirdiyini bəyan edib. SEPAH-ın açıqlamasına görə, "Nəsr-2" əməliyyatının səkkizinci mərhələsi çərçivəsində Küveytdə yerləşən ABŞ-ın "Əli əl-Səlim" aviabazasındakı C-RAM erkən xəbərdarlıq radiolokasiya sistemi və ABŞ hərbçilərinin dislokasiya məntəqəsi birgə zərbələrin hədəfi olub.

"Mehr" agentliyinin məlumatına əsasən, eyni zamanda, ABŞ-nin İordaniyadakı "Əl-Əzraq" aviabazasına da zərbələr endirilib. Bildirilir ki, hücum nəticəsində ABŞ Silahlı Qüvvələrinə məxsus rabitə sistemləri və yanacaq anbarları hədəfə alınıb. Məlumatlar İran tərəfi tərəfindən açıqlanıb. ABŞ və Küveyt, eləcə də İordaniya rəsmiləri hələlik bu iddialarla bağlı rəsmi açıqlama verməyiblər.

## Hindistan məhdudiyyət qoydu...

Baş verənlərdən sonra artıq bir sıra dövlətlər yenidən Hörmüz boğazı vasitəsilə gəmilərinin hərəkətini məhdudlaşdırıb. Məhdudiyyətlər Hörmüz boğazında ticarət gəmilərinə artan hücumlar fonunda tətbiq edilib. Bu qərar bir neçə gün öncə BƏƏ tankerlərinə edilən hücumdan sonra verilib. Hindistanın Dəniz Administrasiyası Baş Müdirliyi (DGMA) gəmi sahiblərinə, gəmi idarətmə şirkətlərinə və heyət agentliklərinə Hörmüz boğazından keçən gəmilərə hind dənizçilərini yerləşdirməyi qadağan edib. Sərəncam agentliyin sosial media səhifəsində dərc edilib.

Sənəddə bildirilir ki, son bir neçə gün ərzində Mombasa B, Al Bahyah, GFS Galaxy, MT Wedyan və Al Rekayyat da daxil olmaqla ticarət gəmilərinə edilən hücumlar münaqişə zonasında dənizçilər və ticarət dənizçiləri üçün riskləri əhəmiyyətli dərəcədə artırıb.

Bundan əlavə, Hindistan hakimiyyəti Fars körfəzində, Hörmüz boğazında və bitişik sularda gəmi kapitanlarını təhlükəsizlik tədbirlərini gücləndirməyə və bölgədəki vəziyyətlə bağlı xəbərdarlıqları daim izləməyə çağırıb.



## Yeni sanksiyaların tətbiqi gündəmdə

Son illərdə miqrant axınının-da azalma müşahidə edilsə də, Qərb dünyası yenə də narahatlıq içindədir, Belə ki, bütövlükdə Avropa İttifaqı qapıları daha sərt şəkildə bağlamaq niyyətindədir. Bu günlərdə Avropa Komissiyası qanunsuz miqrasiya, insan alveri və digər ciddi mütəşəkkil cinayətkarlıqla mübarizə aparmaq üçün yeni sanksiya rejiminin yaradılmasını təklif edib. Avropa Komissiyasının yazılı açıqlamasında təklifin Avropa Komissiyası və Aİ-nin xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi Kaya Kallas tərəfindən verildiyi bildirilir.

Bəyanatda qeyd olunur ki, yeni sanksiyalar mexanizmi qeyri-qanuni miqrasiya və insan alveri, həmçinin qanunsuz silah və narkotik ticarəti, çirkli pulların yuyulması kimi mütəşəkkil cinayətkarlıq fəaliyyətlərini əhatə edəcək. Mütəşəkkil cinayətkar qruplların cəmiyyətlərin rifahını pozduğu, qanunun aliliyini və demokratiyanı zəiflətdiyi, iqtisadi sabitliyə və təhlükəsizliyə təhdid yaratdığı vurğulanır.

Aİ xaricində fəaliyyət göstərən miqrant qaçaqmalçılığı şəbəkələrinin və insan alverçilərinin fəaliyyətinin İttifaqın təhlükəsizliyinə və fundamental dəyərlərinə ciddi təhdid yaratdığı vurğulanır. Əlavə olaraq qeyd olunur: "Komissiyanın məlumatlarına görə, son iki ildə Aİ-yə qeyri-qanuni miqrasiya 50 faizdən çox azalsa da, çox sayda insan hələ də qaçaqmalçıların əlində həyatlarını itirmək və ya həyati təhlükəsi olan vəziyyətlərlə üzləşmək riski altındadır".

Bəyanatda yeni sanksiya rejiminin mütəşəkkil cinayətkarlıq şəbəkələrinin maliyyə resurslarını hədəf alacağı və geniş yayılmış, sistemli və ya mütəşəkkil təbiətinə görə İttifaqın dəyərlərinə, üzv dövlətlərin təhlükəsizliyinə və ya beynəlxalq təhlükəsizliyə ciddi şəkildə təhdid yaradan Aİ xaricində yaranan fəaliyyətləri izləyəcəyi bildirilir.

Qeyd olunur ki, sanksiya siyahısındakı şəxslərin və qurumların aktivləri Aİ-də dondurulacaq və onlara hər hansı vəsait və ya iqtisadi resursların verilməsi qadağan ediləcək.

Bəyanatda, həmçinin siyahıdakı şəxslər üçün Aİ ərazisinə giriş və ya tranzitin qadağan ediləcəyi və sanksiyaların əlaqələndirilmiş şəkildə, çevik, mütənasib şəkildə və müntəzəm olaraq nəzərdən keçirilmək şərti ilə tətbiq olunacağı bildirilir.

Təklif üzv dövlətlərin təmsil olunduğu Aİ Şurasına təqdim ediləcək. Sanksiya rejiminin qüvvəyə minməsi üçün bütün üzv dövlətlərin yekdil təsdiqi tələb olunacaq.

Xatırladaq ki, yeni sanksiya rejimi təşəbbüsünü Aİ Komissiyasının Prezidenti Ursula Fon der Lyayen 2025-ci ildə "İttifaqda vəziyyət" adlı hesabatında elan etmişdi. O, çıxışında miqrant qaçaqmalçılarını və insan alverçilərini hədəf alan yeni Aİ sanksiya mexanizminin yaradıldığını elan etmiş və bunun cinayətkar təşkilatların aktivlərini dondurmağı, hərəkətlərini məhdudlaşdırmağı və maliyyə resurslarını kəsməyi hədəflədiyini bildirmişdi.



## BMT-də yaşanan narahatlıq

Qərb dövlətlərində miqrantlarla bağlı qanunların sərtləşdirilməsi insan hüquqları, demokratiya prinsipləri və müasir şəraitdəki reallıqlar nəzərə alınmaqla birmənalı qarşılanmır. BMT ekspertləri Avropa Şurasının bu yaxınlarda qəbul etdiyi miqrasiya ilə bağlı Kişineu Bəyannaməsi ilə bağlı dərin narahatlıqlarını bildiriblər. Ekspertlərin yazılı bəyanatında qeyd olunub ki, miqrasiya idarəçiliyi insan hüquqlarına əsaslanmalıdır.

May ayında qəbul edilən Kişineu Bəyannaməsinin məqsədi Avropa insan hüquqları sisteminin miqrasiya işlərində necə fəaliyyət göstərməli olduğunu aydınlaşdırmaq və dövlətlərin sərhədlərinə nəzarət etmək hüququnu təsdiqləmək kimi qəbul edilir. Lakin tənqidçilər bunun ikisəviyyəli hüquqlar sistemi yaratmaq və məhkəmələrə müdafiəni daha dar şəkildə şərh etmək üçün siyasi təzyiqi artırmaq riski daşıdığını iddia edirlər.

Bəyanatda xatırladılır ki, miqrasiya məsələlərində Avropa İnsan Hüquqları Konvensiyasını yenidən balanslaşdırmağı iddia edən son siyasi təşəbbüslər insan hüquqlarının pozulmasını normallaşdırmaq və dövlətlərin öhdəliklərinin məhdudlaşdırıcı şərhlərini təşviq etmək riskini daşıyır.

Ekspertlər bildiriblər: "Bəyannamənin əvvəllər ifadə etdiyimiz narahatlıqları, o cümlədən məcburi miqrasiya nəzarətinin prioritetləşdirilməsini, sığınacaq almaq üçün məhdudiyyətləri, həbs və geri qaytarılmaların genişləndirilməsini, qanuni prosesin zəiflədilməsini və miqrantların ölümünə, işgəncəyə, pis rəftara, məcburi yoxa çıxmasına və ya təqibinə səbəb ola biləcək digər hərəkətləri gerçəkləşdirməsindən məyusuq".

Onlar xəbərdarlıq ediblər ki, bəyannamənin dövlətlər üçün potensial olaraq həddindən artıq qiymətləndirmə sərbəstliyinə yenidən vurğusu "ölkələrin Konvensiya üzrə öhdəliklərini pozan və Avropa İnsan Hüquqları Məhkəməsi tərəfindən müstəqil nəzarəti sarsıdan tədbirləri əsaslandırmaq üçün vasitəyə çevrilməməlidir".

*Mübariz FEYİZLİ*

## Tramp İrana təşəkkür etdi...

Bu arada Donald Tramp 2024-cü ildə saxlanılan amerikalı qadının azadlığa buraxılmasına görə İrana təşəkkür edib. NYT-nin məlumatına görə, həm də İran vətəndaşı olan qadın həbs edilməmişdi - lakin casusluq şübhəsi ilə davamlı şəkildə dindirilmişdi. Belə ki, İran 2024-cü ildə saxlanılan amerikalı qadının ölkəni tərk etməsinə icazə verib. Donald Tramp "Truth Social"da bildirib: "İran 2024-cü ilin dekabrında yuxulu Co Baydenin "prezidentliyi" dövründə qanunsuz olaraq saxlanılan ABŞ vətəndaşının ölkəni tərk etməsinə icazə verib. O, hazırda İrandan kənarda təhlükəsizdir və yaxşı vəziyyətdədir. ABŞ İrandan gələn bu xoşməramlı jesti çox yüksək qiymətləndirir!"- deyə o yazıb.

"New York Times" qəzeti Kararinin ikili vətəndaşlığına - ABŞ və İran vətəndaşlığına malik olduğunu öyrənib. O, ailəsini ziyarət edərkən Şirazda saxlanılıb. Qəzetin məlumatına görə, o, dəfələrlə dindirilib, lakin saxlanılmayıb - sadəcə İrandan çıxmasına qadağa qoyulub.

## İran: Hörmüz bağlı qalacaq...

İran Silahlı Qüvvələrinin nümayəndəsi Məhəmməd Əkrəminiya Hörmüz boğazının hərbi təhdid və ya təzyiq nəticəsində açılmayacağını bildirib. "Mehr" agentliyinə açıqlamasında Məhəmməd Əkrəminiya deyib ki, ABŞ-ın İslamabad Anlaşma Memorandumunun şərtlərinə əməl etməsi, bütün hərbi əməliyyatların dayandırılması və İranın suveren hüquqlarına hörmət göstərilməsi Hörmüz boğazının açılması üçün Tehranın əsas şərtləridir. O bildirib ki, İranın iradəsi nəzərə alınana qədər Hörmüz boğazı bağlı qalacaq.

İran rəsmisi əlavə edib ki, Tehran ABŞ və onun müttəfiqlərinin Hörmüz boğazında İslamabad Memorandumunun çərçivəsindən kənarda atdığı istənilən addımı ölkənin suverenliyinin pozulması kimi qiymətləndirir və belə halların qarşısı İran Silahlı Qüvvələri tərəfindən alınacaq.

*P.İSMAYILOV*

# Münaqişələrin günahsız qurbanları...



## "Atlas Bey" adlı mülki gəminin azərbaycanlı kapitanının nəşi tapılıb

Dünyanın müxtəlif bölgələrində davam edən münaqişələr mülki insanlara da ciddi zərər vurmaqdadır. Həm yaşayış məntəqələri, mülki infrastrukturlar, dinc əhali hərbi qarşıdurmanın hədəflərinə çevrilir. Bu baxımdan, mülki gəmiçilik də münaqişələrin qurbanları sırasındadır. Belə ki, xüsusilə Yaxın Şərq, həm də Rusiya-Ukrayna müharibələrində çoxlu sayda mülki gəmilər hücuma məruz qalıb və hücumlar nəticəsində günahsız insanlar həyatını itirib.

Müxtəlif vaxtlarda belə hallardan zərər çəkən azərbaycanlılar da olub. Sonuncu dəfə isə iyulun 14-də Ukraynanın Odessa sahilləri yaxınlığında yerli vaxtla saat 15:15 radələrində Türkiyənin Okean Maritime şirkətinə məxsus Atlas Bey adlı mülki ticarət gəmisi dron hücumuna məruz qalarkən həmvətənlərimiz zərər görüb. Belə ki, gəmidə ekipaj üzvlərindən 11-i Azərbaycan vətəndaşıdır. Məlumata görə, hadisədən sonra ekipajın digər üzvləri Odessa şəhərində sahilə çıxarılıb. Onların vəziyyəti qənaətbəxş qiymətləndirilib.

Azərbaycanın Ukraynadakı səfirliyi aidiyyəti qurumlarla daimi əlaqə saxlayaraq, ölkəmizin vətəndaşlarına zəruri konsulluq dəstəyinin göstərilməsi istiqamətində müvafiq tədbirlər görüb. İyulun 14-də Ukraynanın Odessa sahilləri yaxınlığında hücuma məruz qalmış Atlas Bey mülki ticarət gəmisinin heyətindəki 10 nəfər Azərbaycan vətəndaşı Moldovaya keçməklə Türkiyə üzərindən ölkəmizə yola salınıb.

Axtarışlardan sonra gəminin kapitanı Səməd Nəsrullayevin nəşi aşkarlanaraq, Odessaya gətirilib. Xarici İşlər Nazirliyindən bildirilib ki, müvafiq zəruri tədbirlər yekunlaşan kimi cənazə ölkəmizə yola salınacaq.

"Həlak olan gəmi kapitanının ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı veririk. Allah rəhmət eləsin!", - deyə nazirliyin məlumatında qeyd olunub.

Baş vermiş hadisə ilə əlaqədar Xarici İşlər Nazirliyi Azərbaycan vətəndaşlarına çağırış edib. Nazirliyin bəyanatında bildirilir ki, dəfələrlə edilmiş xəbərdarlıqlara baxmayaraq, müxtəlif silahlı münaqişə bölgələrində və yüksək riskli ərazilərdə Azərbaycan vətəndaşlarının fəaliyyət göstərməsi, habelə onların həlak olması və ya müxtəlif dərəcəli bədən xəsarətləri alması halları təəssüf hissi ilə qeydə alınmaqda davam edir.

Bəyanatda, həmçinin deyilir: "Xüsusilə, Qara dəniz hövzəsində davam edən hərbi əməliyyatlar, mülki gəmiçiliyə qarşı mövcud təhlükələr, pilotsuz uçuş aparatları, raket və digər silahlardan istifadə edilməsi nəticəsində regionda təhlükəsizlik vəziyyəti son dərəcə həssas olaraq qalır. Hərbi əməliyyatların coğrafiyası və intensivliyi nəzərə alınmaqla mülki gəmilər və onların ekipaj üzvləri üçün risklər əhəmiyyətli dərəcədə artıb. Bu çərçivədə, Azərbaycan vətəndaşlarını hərbi əməliyyatların davam etdiyi və ya təhlükəsizlik vəziyyətinin qeyri-sabit olduğu bölgələrə səfər etməkdən, həmin ərazilərdə əmək fəaliyyəti ilə məşğul olmaqdan və ya bu marşrutlar üzrə fəaliyyət göstərən nəqliyyat vasitələrində, o cümlədən dəniz gəmilərində işləməkdən çəkinməyə bir daha çağırırıq".

Bununla yanaşı, Xarici İşlər Nazirliyi rəsmi xəbərdarlıqlara ciddi şəkildə riayət olunmasını və zərurət yarandıqda Azərbaycanın diplomatik nümayəndəlikləri və konsulluqları ilə əlaqə saxlanılmasını tövsiyə edir.

*Nardar BAYRAMLI*

# Altı ölümün öldürdüyü tək adam

## Edqar Allan Ponun yaradıcılığı haqqında

**əvvəli ötən sayımızda**

Qırmızı ölüm adı altında müəllifin hansı xəstəliyi, hansı mikrobdan yayılan epidemiyanı nəzərdə tutduğu bilinmir; bilinən budur ki, həyat - ölümdən qaçmaq üstündə qurulmuş ötəri tamaşa, əcəl yuxusundan bir anlıq ayılıb bir yerə yığılmış məxluqatın çal-çağırlı məclisi, hər kəsin özünə layiq maska taxıb rol oynadığı bal-maskaraddır. Ancaq çılğın rəqslər hər saatbaşı ara verir, əcəl hər saat zəngini çalıb əylənənlərin kefinə zəhər qatır. Qırmızı qan rəngidir, qan həm həyat, həm də ölüm simvoludur. Qırmızı ölüm elə həyatın özüdür. Şahzadənin qəsrində olum ölümlə iç-içədir, həyat şərbətlə ağunu bir qabda verir; ömür fələkdən oğurlanmış, əcəlin gözündən yayındırılmış bir neçə andır. Yəni əslində həyat müstəqil səltənət deyil, mütləq ölümün sonsuz ərazisində muxtariyyət verilmiş ötəri bir məmləkətdir. Qara döşənmiş otağın xüsusi seçdirilməsi də buna görədir: həyatdakı bütün rənglər gəldi-gedərdir, yalnız rəng məzarlığı, ölüm rəmzi qara rəng - kainatın qara materiyası, dünyanın təməl materialı, varlığın qaranlıq müstəvisi əbədidir, yalnız ölüm özü ölməzdir.

Saat on iki zəng çalanda məclisdə yeni bir maskalının peyda olduğu gözlərdən yayınmır. Şahzadə yad adamı tutmaq əmri versə də, kimsə ürək eləyib üst-başına qan çilənmiş, sir-sifətindən qırmızı dəhşət yağan dəlisov məxluqa yaxın düşəmmir:

"O, şahzadənin yanından düz keçdi, - qonaqlar ona yol vermək üçün hər iki divar boyu sıralanmışdılar, - onu başqalarından ayıran həmin o səlis, təntənəli yerişlə mavi otaqdan qırmızıya, qırmızıdan yaşıla, yaşıldan narıncıya, oradan ağ otağa, oradan da bənövşəyi otağa, nəhayət, qara otağa adladı, bu müddətdə bir adam da onun qabağına durmadı. Bu zaman həm qəzəbdən, həm də ötəri ağciyərliyinə görə çəkdiyi xəcalətdən başını itirmiş şahzadə Prospero özünü dəhlizin dərinliyinə atdı; ancaq ölüm qorxusuna mübtəla olmuş saray adamlarından heç kim onun ardınca getmədi. Əlində siyrilmiş xəncər qaçan şahzadə qara otağın astanasında düşmənə çataçatda yad adam qəfil dönüb gözlərini ona zillədi. Tükürpədən bağırtı qopdu, əvvəlcə qaranlıqda parıldayıb-sönən xəncər, sonra da şahzadənin cansız bədəni matəm xalısının üstünə düşdü. Onda qorxudan qeyrətə gələn məclis əhli bütün cəsarətini toplayıb qara otağa axışdı. Ancaq saatın kölgəsində boyaboy donub qalmış bəduğur məxluqu ələ keçirər-keçirməz dəhşətlə duydular ki, hikkəylə yırtmaq istədikləri kəfənin də, qorxunc maskanın da altında heç nə yoxdur.

Gələnin Qırmızı ölüm olduğuna daha kimsənin şübhəsi qalmadı. O, gecənin qaranlığında içəri oğrun girmişdi. Qan çilənmiş ziyafət salonlarında əyyaşlar bir-birinin ardınca yerə döşənir, ölüm onları hansı vəziyyətdə haqlayırdısa, o halda da can verirdilər. Sonuncu kef əhlinin ölümüylə abnos ağacından qayırılmış saatın da səsi batdı, kürələrin də alovu söndü. Sonra hər yerdə Zülmətin, Fəlakətin, bir də Qırmızı ölümün şəriksiz hökmranlığı başlandı".

Qotik üslubda yazılmış, qorxulu süjet üzərində qurulmuş əsər belə bir qiyamət ovqatıyla bitir, Edqar Po öz pessimizmini dünyanın sonuyla uzlaşdırır.

***

"Sfinks" (1846) hekayəsinin təhkiyəçi qəhrəmanı da dəhşətli epidemiya günlərində Nyu-Yorkdan qaçıb iki həftəliyə bir qohumunun (həm də dostunun) Hudzon çayı yaxasındakı gözdən uzaq xudmani kottecinə çəkilir. Təbiət qoynunda dincəlmək, əylənmək üçün hər cür şərait olsa da, azman şəhərdən gələn bəd xəbərlər onun kefinə zəhər qatır. Vəba quduzlaşdıqca insanlar dostlarının, doğmalarının itkisinə alışırlar: "Axır-axırda hər xəbərin gəlişini ürək döyüntüsüylə qarşılayırdıq. Cənubdan əsən külək elə bil ölümün nəfəsiydi. Bu duyğu, bu düşüncə mənim canımaqanıma işləmişdi. Başqa nədənsə danışa, nəsə düşünə, yuxularımda ayrı nəsə görə bilmirdim. Ev yiyəsi çox da nazik adam deyildi, hərçənd özü də bərk sarsılmışdı, elə hey mənə ürək-dirək verməyə çalışırdı. Onun müdrik ağlı qaraqura xəyallara uymazdı. Gerçək təhlükəni o, göydə tutardı, ancaq olmayan yerdə təhlükə qorxusuyla yaşamazdı. Ev yiyəsinin kitabxanasında əlimə düşən bir para kitabların ucbatından onun mənim xəstə, qaranlıq xəyallarımı dağıtmaq cəhdi, demək olar, daşa dirəndi. O kitablarda yazılanlar mənə qanımla ötürülmüş, canımın bir küncündə gizlənmiş bütün mövhumat toxumlarını cücərtmək gücündəydi. Mən kitabları qohumumdan xəbərsiz oxumuşdum, buna görə də o, təxəyyülümü körükləyən səbəbləri anlamaqda çətinlik çəkirdi".

Qəhrəmanın sözü-söhbəti hayana fırlansa, axır gəlib əlamətlərin, işarələrin üstündə bənd alır, bir ara o, əlamətlərə ciddi-ciddi inanır. Bu mövzuda qohumuyla uzun-uzadı çəkişmələrə baş vurur. Qohumu bu sayaq mövhumi inamların tam əsassız olduğunu deyib durur, qəhrəmanımızsa sübuta yetirməyə çalışır ki, insanlara kənardan sırınmamış, xalqın təbiətindən mayalanmış etiqadda mütləq hansısa həqiqət payı var, ona görə də bu inam, etiqad hörmətə layiqdir.

Bir müddət sonra kottecə qayıdanda onun başına elə anlaşılmaz bir iş gəlir ki, adam möhkəm sarsılır, fikri-xəyalı tamam dolaşdığından dostuna ürəyini açmaq üçün neçə gün düşünməli olur:

"Qızmar günün sonuna doğru mən əlimdə kitab açıq pəncərə qarşısında oturmuşdum; pəncərədən çayın sağ-sol yaxası, ondan da aralıda bizə baxan üzü sürüşmə ucbatından keçəl qalmış təpə görünürdü. Bayaqdan fikrim kitabdan yayınıb, zillətin, fəlakətin meydan suladığı qonşu şəhərə köçmüşdü. Başımı kitabdan qaldıranda mən uzaqda çılpaq yamac, yamacda da eybəcər görkəmli nəhəng bir məxluq gördüm; sonra o məxluq bir göz qırpımında yamacdan enib, təpənin ətəyindəki qalın meşədə itdi. Bu varlığı ilk görəndə düşündüm bəlkə dəli olmuşam, ona görə də haqnahaq gözlərimə inanmadım; ağlımı itirmədiyimə, yuxu görmədiyimə əmin olana qədər bir xeyli keçdi. Ancaq indi açıq-aydın gördüyüm, təpənin ətəyinə enənəcən gözdən yayındırmadığım o bədheybəti təsvir eləməyə başlasam, oxucuları buna inandırmaq mənim özümü inandırmağımdan da çətin başa gələcək.

Yamacı endikcə sürüşməyə davam gətirmiş tək-tək azman ağacların böyründən ötdüyünə görə deyə bilərəm ki, bədheybət məxluq nəhənglikdə heç bir okean gəmisinə boy verməzdi. Gəmini elə-belə yada salmadım, onun biçimiquruluşu həqiqətən də bizim yetmiş dörd toplu hərbi gəminin korpusuna bənzəyirdi. Ağzı altmış-yetmiş fut uzunluqda, fil gövdəsi yoğunluqda xortumunun ucunda yerləşirdi. Xortumunun kökündə çəngə-çəngə sıx tüklər qaralırdı - qırxan olsaydı, bir düjün vəhşi öküzün yunundan ağır gələrdi; oradan qaban qılıncına bənzər, ancaq ondan qat-qat iri bir cüt parlaq köpək dişi - biri aşağı, o biri yana əyilmiş iki azman diş çıxmışdı. Xortumun sağ-solundan yanlara otuz-qırx fut uzunluğu olan, büllur kimi işıldayan nəhəng prizmatik buynuzlar uzanırdı - batan günəşin o buynuzlara dəyib-qayıdan saçaqları göz çıxarırdı. Gövdəsi çivə bənzəyirdi, iti ucu aşağı yönəlmişdi. Hər biri az qala yüz yard uzunluğunda iki cüt qanadı vardı; qanadlar bir-birinin üzərində bitmişdi, hamısının da üstü diametri on-on iki fut olan dəmir pullarla örtülüydü. Onu da gözüm aldı ki, üst qanadlar alt qanadlara yoğun zəncirlə bağlanıb. Ancaq bu bədheybət varlığın ən gözəçarpan cəhəti onun, demək olar, bütün sinəsini tutmuş, tünd gövdəsinin üstündə yağlı rəssam fırçasıyla çəkilibmiş kimi ağaran kəlləsiydi. Ağlımın gücü yetməyən bir dəhşətlə, bir qaçılmaz fəlakət duyğusuyla əcaib heyvana, ən çox da heyvanın sinəsindəki kəllə təsvirinə baxdığım yerdə qəfildən onun xortumundan sallanan nəhəng ağzı açıldı, heyvan mənim qulaqlarımda nəhs əlamət kimi cingildəyən acı naləsiylə yeri-göyü titrətdi; bədheybət varlıq təpənin ətəyində gözdən itər-itməz mən özümdən gedib yerə sərildim".

Bu əhvalatdan üç-dörd gün ötmüş axşam çağı dostlar bədheybət varlığın nağılçının gözünə göründüyü otaqda otururlar: qəhrəmanımız pəncərənin qarşısındakı həmin o kürsüdə əyləşir, qohumu ondan azca aralı taxtın üstündə dirsəklənir. Vaxt o vaxt, yer də o yer olduğundan təhkiyəçinin yaddaşı təzələnir, qəribə hadisəni dostuna danışmaq istəyir. Dostu qabaqca ürəkdən gülə-gülə, sonra da qohumunun havalandığına şəkk-şübhəsi qalmayıbmış kimi ciddi bir tövrlə onu sonacan dinləyir. Bu dəm eybəcər nəhəng yenə aydın görünür, qəhrəmanımız qorxunc bir bağırtıyla əlini ona tuşlayır. Bədheybətin çılpaq yamacla enişini xırdalığınacan təsvir eləsə də, dostu təpəyə sarı diqqətlə baxıb, bir şey görmədiyini deyir. Onda adam daha da həyəcanlanır, qarabasma ona ölüm əlaməti, bundan da betəri, dəlilik nişanəsi kimi gəlir. Əli yerdən-göydən üzülən nağılçı özünü kürsüyə yıxıb ovuclarıyla üzünü qapayır: "Gözümü açanda qarabasma yoxa çıxmışdı".

**davamı növbəti sayımızda**



*F.Uğurlu*

# Aİ Rusiyaya qarşı yeni sanksiyaları müzakirə edir

## 21-ci sanksiya paketi fikir ayrılıqları səbəbindən qəbul olunmur

**Rusiyanın Ukraynaya qarşı hücumlarının gücləndiyi bir vaxtda Kiyevin müttəfiqləri və tərəfdaşları Moskvaya təzyiq üçün müxtəlif addımlar atırlar. Belə addımlardan biri də Rusiyaya qarşı sanksiyaları daha da genişləndirməkdir.**

### Kallas: 21-ci sanksiya paketi üzərində işləmək niyyətindəyik

İyulun 13-də Avropa İttifaqının (Aİ) xarici siyasət və təhlükəsizlik üzrə ali nümayəndəsi Kaya Kallas bildirmişdi ki, İttifaqın xarici işlər nazirləri Brüsseldə Rusiyaya qarşı yeni sanksiyalar paketini, Ukraynadakı müharibəni və bir sıra beynəlxalq təhlükəsizlik məsələlərini müzakirə etmək üçün toplaşıblar. Kaya Kallas görüşdən əvvəl jurnalistlərə deyib: "Ümid edirik ki, 250 siyahı razılaşdırılacaq və bundan sonra hələ razılaşma əldə olunmayan 21-ci sanksiya paketi üzərində işləmək niyyətindəyik". Kallas təklif olunan sanksiya siyahılarının Rusiyanın son zamanlar mülki şəxslərə qarşı hücumlarına cavab olduğunu deyib. O əlavə edib ki, nazirlər, həmçinin Rusiyanın nəzarətində olan ərazilərdə saxlanıldığı iddia edilən Ukrayna mülki şəxslərinin, o cümlədən müəllimlər və jurnalistlərin, hərbi əsirlər və oğurlanmış uşaqların vəziyyətini də müzakirə edəcəklər. "Biz həmin insanları azad etmək üçün bu tələbləri yerinə yetirə biləcəyimiz bir platforma yaratmağı düşünürük", -deyən Kallas əlavə edib ki, saxlanılan mülki şəxslər haqqında məlumat əldə etmək oğurlanmış uşaqlarla müqayisədə daha çətindir.

Nazirlərin görüşündən sonra isə xanım Kallas Rusiyaya qarşı 21-ci sanksiyalar paketi üzrə razılığa gələ bilmədiklərini, lakin danışıqların yekun mərhələdə olduğunu bəyan edib: "Təəssüf edirəm ki, 21-ci paketlə bağlı razılıq əldə edə bilmədik, baxmayaraq ki, biz ona kifayət qədər yaxınıq". Onun sözlərinə görə, yeni paket üzrə razılaşmanın olmamasına baxmayaraq, nazirlər Aİ-nin müxtəlif sanksiya rejimləri çərçivəsində 250-dən çox fərdi sanksiyanın daxil edilməsini razılaşdırıblar. O, bunu Rusiya-Ukrayna müharibəsi başlayandan bəri fərdi sanksiyaların ən böyük raundu adlandırıb.

Kallas etiraf edib ki, üzv dövlətlər paketlə bağlı müxtəlif tələblər və etirazlar irəli sürürlər, çünki müharibə artıq bir neçə ildir davam edir və bütün Aİ ölkələrinin iqtisadiyyatlarına təsir göstərir. Lakin onun sözlərinə görə, Avropa iqtisadiyyatı üçün ən yaxşı həll yolu müharibənin dayandırılmasıdır, bu isə Moskvaya təzyiqin saxlanılmasını tələb edir. O, sanksiyalar paketindən məhz hansı müddəaların çıxarıla biləcəyini açıqlamaqdan imtina edib. Bununla yanaşı, Aİ diplomatiyasının rəhbəri Avropa Komissiyası tərəfindən ilkin olaraq təklif edilən paketin danışıqlar zamanı dəyişikliklərə məruz qaldığını təsdiqləyib: "Təkliflərin başlanğıcda maksimum dərəcədə güclü olması həmişə yaxşıdır. Anlayırıq ki, danışıqlar gedişində bəzi müddəalar çıxarılacaq, lakin yekunda paket öz gücünü qorumalıdır".




### Britaniya da yeni sanksiyalar tətbiq edib

Bugünlərdə isə Böyük Britaniya Rusiyanın Avropada sabitliyi pozmağa yönəlmiş kiber və hibrid fəaliyyətlərdə iştirak etdiyini bildirdiyi şəxslər və qurumlara qarşı yeni sanksiyalar paketi elan edib. Bu barədə Böyük Britaniya hökuməti məlumat yayıb. Sanksiyalar Rusiya kəşfiyyat xidmətləri ilə əlaqəli vasitəçi şəbəkələrdə fəaliyyət göstərən kibercinayətkarlar da daxil olmaqla, ümumilikdə 24 fiziki və hüquqi şəxsi əhatə edir. Sanksiya siyahısına, həmçinin Rusiyanın Baş Kəşfiyyat İdarəsinin (GRU) kiber və hibrid əməliyyatlarına rəhbərlik etməkdə ittiham olunan yüksəkvəzifəli şəxslər- Vyaçeslav Stafeyev, İvan Senin və İvan Kasyanenko da daxil edilib. Yeni sanksiyalar paketi Avropa İttifaqı ilə koordinasiyalı şəkildə elan olunub.

*N.BAYRAMLI*

### 21-ci paketdə nələr təklif olunur?

Xatırladaq ki, iyunun 9-da Avropa Komissiyasının rəhbəri Ursula Fon der Lyayen əsasən Rusiyanın neft ixracı və bank sisteminə qarşı yönələn 21-ci sanksiyalar paketini təqdim etmişdi. Onun sözlərinə görə, yeni paket Rusiyanın enerji daşıyıcılarının ixracından əldə etdiyi gəlirlərə təzyiqin saxlanmasına yönəlib. Avropa Komissiyası qlobal neft bazarındakı dəyişkənlik fonunda mövcud məhdudiyyətləri qorumaq üçün Rusiya neftinin qiymət tavanının korreksiya mexanizminin gələn ilin yanvarına qədər dayandırılmasını təklif edib. Aİ enerji sektorunda Rusiya neftinin daşınması ilə əlaqəli daha 30 gəmini sanksiya siyahısına daxil etməyi təklif edib. İlk dəfə olaraq məhdudiyyətlər "kölgə donanması"na yardımçı xidmətlər göstərən gəmilərə və şirkətlərə şamil ediləcək.

Maliyyə sektorunda daha 31 Rusiya bankı üçün əməliyyat qadağasının genişləndirilməsi təklif olunur. Məhdudiyyətlər sanksiyaya məruz qalmış Rusiya strukturlarına xidmət göstərən və ya məhdudlaşdırıcı tədbirlərdən yayınmağa kömək edən üçüncü ölkələrin 20 bankı, kriptovalyuta şirkəti, platforması və neft treyderlərini əhatə edəcək. Fon der Lyayenin sözlərinə görə, Avropa Komissiyası ilk dəfə olaraq Rusiyaya qarşı sanksiya rejimindən yayınmağa kömək edən üçüncü ölkələrin ayrı-ayrı platformaları tərəfindən kriptoxidmətlərin göstərilməsinə tam qadağa mexanizminin tətbiqini təklif edir. Eyni zamanda, ümumi dəyəri təxminən 60 milyon avro olan malların, o cümlədən ayrı-ayrı metal növləri, metal filizləri və avtomobil komponentlərinin idxalına məhdudiyyətlər təklif olunur.

Bütün bunlara baxmayaraq, Avropa İttifaqı Rusiyada dörd fiziki şəxs və beş hüquqi şəxsə qarşı sanksiya tətbiq edib. Yeni sanksiyalar Rusiyada söz azadlığının, məlumat əldə etmək və birləşmək hüququnun məhdudlaşdırılması məqsədilə istifadə olunan texnoloji nəzarət vasitələrini və onları hazırlayan şirkətləri hədəf alır. Sanksiya siyahısına Rusiyanın "VK Company" (VKontakte) şirkəti və onun törəmə müəssisəsi olan "Communication Platform" daxil edilib. Aİ bu şirkətləri Federal Təhlükəsizlik Xidmətinin (FSB) nəzarəti altında fəaliyyət göstərən və "Max App" mobil tətbiqini hazırlayıb idarə etməkdə ittiham edir. Həmçinin internet və mobil rabitənin izlənməsi üçün istifadə olunan SORM nəzarət sistemi ilə bağlı avadanlıq və proqram təminatı hazırlayan "Citadel", "VAS Experts" və "Norsi-Trans" şirkətlərinə də sanksiyalar tətbiq olunub. Bundan əlavə, həmin şirkətlərdə rəhbər vəzifələr tutan dörd şəxs də sanksiya siyahısına salınıb. Bununla Aİ-nin qlobal insan hüquqları sanksiyaları rejimi çərçivəsində siyahıya daxil edilən şəxslərin sayı 98-ə, hüquqi şəxslərin sayı isə 7-yə çatıb. Sanksiyalar aktivlərin dondurulmasını, Aİ vətəndaşları və şirkətləri tərəfindən onlara maliyyə vəsaitinin ayrılmasının qadağan edilməsini, həmçinin Aİ ərazisinə giriş və tranzit məhdudiyyətlərini nəzərdə tutur.

Xatırladaq ki, Aİ-nin Rusiyaya qarşı 20-ci sanksiyalar paketi bu ilin aprelində qəbul olunmuşdu. 20-ci sanksiyalar paketi Moskvaya təzyiqi artırmaq və onun Ukraynaya qarşı hərbi əməliyyatları davam etdirmək imkanlarını məhdudlaşdırmaq məqsədi daşıyır. Sanksiyalar məhdudiyyətlərdən yayınmaya qarşı mübarizəyə aydın şəkildə istiqamətlənib və enerji sektorunu, maliyyə xidmətlərini, ticarəti, eləcə də informasiya məkanını əhatə edir. İlk dəfə olaraq sanksiyalardan yayınmağa qarşı xüsusi mübarizə mexanizmi aktivləşdirilib. Belə ki, paket çərçivəsində Rusiyanın enerji sektorunun 36 şirkətinə, o cümlədən neftin kəşfiyyatı, hasilatı, emalı və nəqlində iştirak edən müəssisələrə qarşı məhdudiyyətlər tətbiq edilib. Aİ həmçinin "kölgə donanması" adlandırılan donanmaya qarşı tədbirləri genişləndirib: sanksiya siyahısına daha 46 gəmi daxil edilib, bununla da onların ümumi sayı 632-yə çatıb. Əlavə olaraq, Aİ-dən Rusiyaya tanker satışına məhdudiyyətlər tətbiq edilib və müqavilələrə onların Moskvanın maraqları naminə istifadəsinin yolverilməzliyini nəzərdə tutan şərtin daxil edilməsi məcburi edilib. Murmansk və Tuapsedəki Rusiya limanları, eləcə də İndoneziyadakı Karimun neft terminalı da sanksiyalara məruz qalıb. Perspektivdə G7 tərəfdaşları ilə razılaşdırıldıqdan sonra Rusiya nefti və neft məhsullarının daşınması üçün dəniz xidmətlərinin göstərilməsinə qadağa qoyulması planlaşdırılır. Ümumilikdə, 20-ci paketə 120 fiziki və hüquqi şəxs daxil edilib. Onlara qarşı aktivlərin dondurulması və maliyyə resurslarının təqdim edilməsinə qadağa, fiziki şəxslər üçün isə həmçinin ölkəyə giriş qadağası tətbiq edilir.

*N.BAYRAMLI*

YENİ AZƏRBAYCAN
http://www.yeniazerbaycan.com
Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

**“Yeni Azərbaycan” qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

“Azərpoçt” MMC PDM- 0125984955, 0552004544
“Azərmətbuatyayımı” ASC - 0124411991, 0124404694
“Səma” MMC - 0125940252, 0503336969
“Pressİnform” MMC - 0703400100, 0504560835
“Qaya” MMC - 0125667780, 0502352343
“Spark Press” MMC - 0503548555
“Ziya LTD” MMC - 0124977696, 0503067744

**1 illik abunə - 158,40 AZN**
**6 aylıq abunə - 79,20 AZN**





# Doğma yurda dönüş davam edir...

## Şükürbəyli yenidən sakinlərini qarşıladı

**İşğaldan azad edilmiş torpaqlarımıza aparan yollar bu gün tamamilə fərqli mənzərəni əks etdirir. Həmin yollar insanların sevinc göz yaşları, doğma yurda qovuşma sevinci və Böyük Qayıdışın yaratdığı qürur hissi ilə müşayiət olunan tarixi bir prosesin əsas ünvanına çevrilib. Mütəmadi şəkildə yola salınan köç karvanları illərlə ata-baba ocağına dönəcəyi günü böyük ümid və səbir içində gözləyən ailələrin həyatında yeni mərhələnin başlanğıcını qoyub. Bu köçlər Azərbaycanın işğaldan azad edilmiş ərazilərində həyatın sürətlə bərpa olunduğunu, yaşayışın yenidən formalaşdığını və bu torpaqların əvvəlki nəfəsini geri qazandığını bütün dünyaya nümayiş etdirir.**

### 52 nəfər yola salınıb

Dünən Cəbrayıl rayonunun Şükürbəyli kəndinə növbəti köç karvanları yola salınıb. Bu mərhələdə Şükürbəyli kəndinə 9 ailə - 52 nəfər köçürülüb.

Doğma yurdlarına qayıdan keçmiş məcburi köçkünlər onlara göstərilən dövlət qayğısından böyük məmnunluq duyaraq, yaradılan müasir yaşayış şəraitinə görə ölkə rəhbərliyinə minnətdarlıqlarını ifadə ediblər. Sakinlər bu tarixi Qələbəni bizə bəxş edən, torpaqlarımızı işğaldan canı bahasına azad edən qəhrəman şəhidlərimizin əziz xatirəsini ehtiramla anıb, onlara Allahdan rəhmət diləyiblər. Eyni zamanda, döyüşlərdə şücaət göstərən qazilərimizə uzun ömür və cansağlığı arzulayan sakinlər, azad edilmiş ərazilərdəki dirçəlişin məhz bu fədakarlıq sayəsində mümkün olduğunu vurğulayıblar. Bildirilib ki, bu gün başlayan yeni həyat həm də şəhid və qazilərimizin bizə əmanət etdiyi Zəfərin bəhrəsidir.



### Təhlükəsiz yaşayış üçün bütün tədbirlər görülür

Şükürbəyliyə qayıdan ailələrin qarşılanması zamanı təhlükəsizlik məsələlərinə də xüsusi diqqət yetirilir. Belə ki, sakinlərə mina təhlükəsi barədə ətraflı məlumat verilir, onlara azad edilmiş ərazilərdə davranış qaydaları izah olunur. Bu yanaşma bir daha göstərir ki, Böyük Qayıdış yalnız insanların doğma yurdlarına köçürülməsi deyil, həm də onların təhlükəsiz, dayanıqlı və rahat həyat şəraitinin təmin edilməsini özündə ehtiva edən genişmiqyaslı dövlət proqramıdır.

### Müasir kənd modeli qurulur

Şükürbəylidə müşahidə olunan mənzərə təkcə yeni evlərin istifadəyə verilməsi ilə məhdudlaşmır. Əksinə, burada müasir kənd yaşayış modelinin formalaşdırılması istiqamətində kompleks infrastruktur layihələri həyata keçirilir, yaşayış evləri ilə yanaşı, geniş və rahat avtomobil yolları çəkilir, elektrik, təbii qaz, içməli su və rabitə xətləri tamamilə yenidən qurulur. Eyni zamanda müasir küçə işıqlandırma sistemi yaradılır, ətraf mühit abadlaşdırılır, sosial və inzibati obyektlər istifadəyə hazırlanır. Bundan başqa, məktəb, uşaq bağçası, tibb məntəqəsi, xidmət və ticarət sahələrinin yaradılması istiqamətində işlər davam etdirilir. Kənd sakinləri uzun illərdən sonra doğma torpaqlarına yalnız qayıtmaq deyil, həm də bütün zəruri sosial imkanlarla təmin olunmuş təhlükəsiz və rahat yaşayış mühitində həyatlarını davam etdirmək üçün böyük imkan əldə ediblər.

### Cəbrayılın azadlığı bölgənin yeni inkişaf mərhələsini başlatdı

Şükürbəylinin yenidən dirçəlməsi Cəbrayıl rayonunun qəhrəmanlıq tarixindən ayrı təsəvvür edilə bilməz. Çünki rayon 1993-cü ilin avqustunda Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmiş, on minlərlə sakin doğma yurdunu tərk etməyə məcbur olmuşdu. Lakin 2020-ci il Vətən müharibəsi zamanı Azərbaycan Ordusunun həyata keçirdiyi uğurlu hərbi əməliyyatlar nəticəsində Cəbrayıl rayonu oktyabrın 4-də işğaldan azad edildi və bu tarixi zəfər Qarabağın azadlığı uğrunda aparılan əməliyyatların dönüş nöqtələrindən biri kimi tarixə düşdü. Cəbrayılın azad olunması Azərbaycan Ordusunun cənub istiqamətində sürətli irəliləyişinə, dövlət sərhədinə nəzarətin bərpasına və sonrakı uğurlu əməliyyatların həyata keçirilməsinə mühüm strateji üstünlük qazandırdı.

Şükürbəyli küçələrində yenidən uşaq səslərinin eşidilməsi, insanların uzun illər həsrətində olduqları torpaqda yeni arzular qurması onu göstərir ki, Böyük Qayıdış proqramı təkcə yaşayış məntəqələrinin bərpası deyil. Bu, eyni zamanda Azərbaycanın tarixi ədaləti bərpa etməsinin və Qarabağı müasir inkişaf məkanına çevirmək istiqamətində həyata keçirdiyi ardıcıl dövlət siyasətinin ən parlaq nümunələrindən biridir. Burada salınan hər yeni küçə, tikilən hər ev və doğma kəndinə qayıdan hər bir ailə Qarabağın gələcəyinin quruculuq, inkişaf və davamlı məskunlaşma üzərində formalaşdığını nümayiş etdirir.

*Yeganə BAYRAMOVA*

# Texnologiya və təhsil bir arada

## Şagirdlərin rəqəmsal mentoru istifadəyə veriləcək...

Rəqəmsal texnologiyaların sürətlə inkişaf etdiyi dövrdə süni intellekt bu günün reallığına çevrilərək, bütün sahələrdə olduğu kimi, təhsil sistemində də yeni imkanların qapısını açır. Dünyanın qabaqcıl ölkələrində geniş tətbiq olunan süni intellekt əsaslı təhsil həllərinin Azərbaycanda da istifadəyə verilməsi istiqamətində addımlar atılır. Ölkəmiz təhsilin rəqəmsal transformasiyası prosesinə fəal şəkildə qoşulur.

Azərbaycanda şagirdlər üçün köməkçi mentor - süni intellekt həlli EduSLM istifadəyə veriləcək. Bu barədə Elm və Təhsil Nazirliyindən məlumat verilib.

Bildirilib ki, sistem Elm və Təhsil Nazirliyi ilə Presight G42 şirkəti ilə əməkdaşlıq çərçivəsində baş tutacaq: “Bu sistem şagirdlər üçün köməkçi mentor rolunu oynayaraq onların bilik səviyyəsinə uyğun fərdiləşdirilmiş dəstək verəcək. EduSLM dərsliklər üzrə suallara cavab vermək, testlər hazırlamaq, ev tapşırıqlarını yoxlamaq və qiymətləndirmək kimi funksiyaları yerinə yetirir. Eyni zamanda, interaktiv tədris materialları yaradır, şagird nailiyyətlərini analiz edir və tədris prosesinin daha effektiv təşkilinə kömək edir”.

Həmçinin qeyd edilib ki, süni intellekt texnologiyaları təhsildə keyfiyyət dəyişikliyi yaradaraq müəllimlərin işini asanlaşdırır, vaxtın daha səmərəli idarəsinə və dərslərin nəticəyönümlü təşkilinə kömək edir: “Bu texnologiyalar həm də şagirdlər üçün fərdiləşdirilmiş və adaptiv öyrənmə mühiti yaradaraq onların fərdi inkişafına şərait yaradır”.

Xatırladaq ki, ötən ayın 29-da Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın rəhbərliyi ilə Rəqəmsal İnkişaf Şurasının ilk iclası keçirilib. İclasda yeni çağırışlar, xüsusilə kibertəhlükəsizlik və informasiya təhlükəsizliyi sahəsində olan və yaranan risklər müzakirə edilib.

### Təhsildə yeni dövr başlayır

Mövzu barədə “Yeni Azərbaycan”a açıqlama verən təhsil üzrə ekspert Elçin Əfəndi bildirib ki, şagirdlər üçün süni intellekt əsaslı EduSLM platformasının istifadəyə verilməsi təhsil sistemində rəqəmsal transformasiyanın yeni mərhələsinin başlanğıcı kimi qiymətləndirilə bilər. Ekspertin sözlərinə görə, artıq süni intellekt yalnız informasiya əldə etmək vasitəsi deyil, eyni zamanda şagirdin fərdi öyrənmə trayektoriyasını müəyyənləşdirən, onun zəif və güclü tərəflərini analiz edən, bilik səviyyəsinə uyğun tədris məzmunu təqdim edən rəqəmsal mentor funksiyasını yerinə yetirməyə başlayır: “Ən vacib məqamlardan biri ondan ibarətdir ki, hər bir şagird eyni sürətlə və eyni üsulla öyrənmir. Sinif otağında müəllim eyni anda bir neçə şagirdlə işlədiyi üçün hər bir uşağın fərdi ehtiyacına tam şəkildə uyğunlaşmaq həmişə mümkün olmur. Süni intellekt isə məhz bu boşluğu doldurmaq imkanına malikdir. EduSLM şagirdin cavablarını analiz edərək hansı mövzuda çətinlik çəkdiyini müəyyənləşdirə, həmin istiqamətdə əlavə izahlar, fərqli tapşırıqlar və yeni məşqlər təqdim edə bilər. Bu isə öyrənmənin daha məqsədyönlü və səmərəli təşkilinə şərait yaradır”.



### Süni intellekt analiz edəcək, müəllim istiqamət verəcək...

E.Əfəndi qeyd edib ki, yeni platformanın test hazırlamaq, ev tapşırıqlarını yoxlamaq, qiymətləndirmə aparmaq və dərsliklər üzrə suallara operativ cavab vermək imkanları müəllimlərin gündəlik iş yükünün azalmasına da ciddi töhfə verə bilər: “Müəllim texniki və təkrarlanan proseslərə daha az vaxt sərf etdikcə, şagirdlə canlı ünsiyyətə, yaradıcı fəaliyyətə, tənqidi düşüncənin inkişafına və fərdi yanaşmaya daha çox diqqət ayırmaq imkanı qazanacaq. Bu isə müasir təhsilin əsas prioritetlərindən biri hesab olunur.

Digər mühüm üstünlük fərdiləşdirilmiş öyrənmə modelinin formalaşmasıdır. Əgər hər hansı şagird riyaziyyatda çətinlik çəkirsə, lakin dil fənlərində daha yüksək nəticələr göstərirsə, sistem bunu nəzərə alaraq ona uyğun fərqli tapşırıqlar təqdim edə, inkişaf dinamikasını izləyə və əldə olunan nəticələr əsasında yeni öyrənmə planı formalaşdıra bilər. Belə yanaşma hər bir şagirdin potensialının daha dolğun şəkildə üzə çıxmasına kömək edir və öyrənməyə motivasiyanı artırır. Süni intellektin təhsilə inteqrasiyası müəllimin rolunun azalması kimi qiymətləndirilməməlidir. Əksinə, müəllim yenə də tədris prosesinin əsas istiqamətləndiricisi, tərbiyəedici və motivasiyaedici fiquru olaraq qalır. Süni intellekt müəllimi əvəz etmir, onun imkanlarını genişləndirən, qərarvermə prosesini məlumatlarla dəstəkləyən və tədrisin keyfiyyətini yüksəldən texnoloji köməkçiyə çevrilir”.

### Azərbaycan dünya təcrübəsinə qoşulur

Ekspert bildirib ki, dünyanın inkişaf etmiş təhsil sistemləri artıq süni intellekt texnologiyalarından geniş istifadə edir: “Azərbaycanın da bu istiqamətdə addımlar atması ölkənin rəqəmsal təhsil strategiyasının mühüm tərkib hissəsi kimi qiymətləndirilə bilər. Bu platformanın tətbiqi mərhələli şəkildə həyata keçirilər, müəllimlər üçün müvafiq hazırlıq proqramları təşkil olunarsa, EduSLM gələcəkdə həm tədrisin keyfiyyətinin yüksəlməsinə, həm də şagirdlərin 21-ci əsr bacarıqlarına daha yaxşı yiyələnməsinə əhəmiyyətli töhfə verə biləcək innovativ həllərdən birinə çevrilə bilər.”

*Yeganə BAYRAMOVA*

Təsisçi:
Yeni Azərbaycan Partiyası
Baş redaktor:
Alqış HƏSƏNOĞLU

www.yeniazerbaycan.com
mail@yeniazerbaycan.com
Ünvan: Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
493-16-94
498-19-84

İndeks: 67100
Lisenziya: N-B-317
Tiraj: 4479
Sifariş: 909
“Kapital Bank” ASC-nin Nərimanov rayon filialı
h/h - 33080019443900419109
kod - 200093
VÖEN - 1500486601

Qəzet “Yeni Azərbaycan”ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap edilib.

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova